Dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmaları 321,5 milyon manat təşkil edib ki, bu da 2017-ci ilin eyni dövrü ilə müqayisədə 74,8 milyon manat və 30,3 faiz çoxdur.

Sair daxilolmalar üzrə büdcəyə 74,1 milyon manat vəsait daxil olub.

Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə 7788,0 milyon manat vəsait transfert edilib.

2018-ci ilin iyul-sentyabr ayları üzrə dövlət büdcəsinin mədaxili üzrə 6274,4 milyon manat vəsait daxil olub.

2018-ci ilin doqquz ayında dövlət büdcəsinin xərcləri proqnoza nisbətən 98,0 faiz və ya 15666,0 milyon manat icra olunub ki, bu da 2017-ci ilin eyni dövrü ilə müqayisədə 2882,3 milyon manat və ya 22,5 faiz çoxdur.

İqtisadi təsnifata uyğun olaraq cari ilin doqquz ayında dövlət büdcəsi xərclərinin 34,5 faizi və ya 5410,1 milyon manatı sosialyönlü xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 545,1 milyon manat və ya 11,2 faiz çoxdur.

2018-ci ilin altı ayında dövlət büdcəsi xərclərinin 7708,8 milyon manatı və ya 49,2 faizi cari xərclərə, 6235,4 milyon manatı və ya 39,8 faizi əsaslı xərclərə, 1721,8 milyon manatı və ya 11,0 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldilib.

Cari ilin doqquz ayında dövlət əsaslı vəsait qoyuluşu xərclərindən elm, təhsil, səhiyyə, sosial, mədəniyyət, idman və digər sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisinə və yenidən qurulmasına 686,2 milyon manat, enerji, su təchizatı, nəqliyyat, kommunal, meliorasiya infrastrukturlarının tikintisinə, yenidən qurulmasına və digər sahələrə 2799,5 milyon manat, o cümlədən Naxçıvan Muxtar Respublikasında həyata keçirilən investisiya layihələrinin maliyyələşdirilməsinə dövlət büdcəsinin dövlət əsaslı qoyuluşu xərclərindən 80,0 milyon manat vəsait yönəldilib.

Cari ilin iyul-sentyabr ayları üzrə dövlət büdcəsinin xərcləri 6141,7 milyon manat icra olunub.

Cari ilin doqquz ayında icmal büdcənin gəlirləri 23859,6 milyon manat, icmal büdcənin xərcləri isə 17979,9 milyon manat icra olunub. İcmal büdcənin artıqlığı 5879,7 milyon manat təşkil edib.

**AZƏRTAC**

17 oktyabr 2018-ci il RESPUBLİKA

# Erməniliyin bəşəri barbarlığı, vəhşiliyi tərəqqipərvər dünyanın nifrəti ilə xatırlanmalıdır

# İrəvanın tarixi mərkəzinin faciəsi




**Oxuculara təqdim etdiyimiz “İrəvanın Tarixi Mərkəzi” kitabı qədim İrəvan (indiki Yerevan) şəhərinin 1918-ci ildə Ararat (erməni) respublikasına paytaxt kimi verilməsi faciəmizin 100 illiyinə həsr olunmuşdur. Buradakı tarixi məlumatlar, sənədlər və fotoşəkillər 100 illik bir müddətdə İrəvan kimi gözəl bir şəhərin tarixi görüntüsünü yerləyeksan edib, barbarcasına erməniləşdirmənin əyani faktıdır.**

**Müəllif Fuad Axundova və kitabın yaranmasında əməyi olan bütün şəxslərə minnətdarlığımızı bildiririk. Amma heyif ki, belə vacib bir kitab cəmi 200 nüsxə buraxılıb. Qat-qat böyük tirajla dünyanın neçə aparıcı dilində nəşr edilib yayılması məqsədəuyğun olardı.**

**“RESPUBLİKA”.**

*“Bizim tarixi torpaqlarımız - İrəvan xanlığı, Zəngəzur, Göyçə. Bizim gənc nəsil və bütün dünya bu haqda bilməlidir. Şadam ki, bu məsələylə ~ bizim əzəli torpaqlarımızın tarixi ilə əlaqədar bu gün böyük elmi əsərlər yazılır, filmlər çəkilir, sərgilər təşkil edilir. Qarşıdakı illər biz bu istiqamət üzrə daha fəal olmalıyıq, dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlarımıza qayıtmalıyıq. Bu bizim siyasi və strateji məqsədimizdir və biz tədricən buna yaxınlaşmalıyıq”.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**



Müasir Ermənistanın yerləşdiyi ərazi yer üzündə ən mürəkkəb polietnik (çoxmillətli) məkanlardan biridir. Qafqaz, Türkiyə, İran bizim planetin çoxmillətli bölgələrindəndir. Burada bəzən hətta qonşu kəndlər müxtəlif dillərdə danışırlar. Bu, çoxəsrlik təkamül proseslərinin nəticəsidir, çünki bölgədən çoxlu ticarət yolları keçirdi və o, mürəkkəb miqrasiya proseslərinə məruz qalıb. Bu zəngin polietnik bir mühitdə müasir Ermənistanın mono-etnikliyi təbii təkamül prosesinin nəticəsi olmayan bir fenomendir.

Məsələn, İslandiya və Yaponiyanın mono-etnikliyi təbiidir, çünki onlar mürəkkəb miqrasiya proseslərinə məruz qalmayıb və dörd tərəfdən su ilə əhatə olunublar. Lakin Ermənistan çoxmillətli dövlətlər - Azərbaycan, Gürcüstan, Türkiyə və İran tərəfdən əhatə olunmuşdur. Buna görə də əhalisinin mono-etnikliyi və hətta xarici görünüşü ətraf ölkələrin xarici görünüşü və milli müxtəlifliyi ilə kəskin ziddiyyət təşkil edir.

Aydındır ki, Ermənistanda belə bir dəyişikliklərə gətirib çıxaran proseslər hiss olunmaya bilməzdi. Tarix dəqiq elmdir. O, Ermənistanın ətraf ölkələrdən belə kəskin fərqli olmasının səbəbini müəyyən və asanlıqla izah edə bilir.

Tarixi Azərbaycan və Gürcüstan torpaqlarına ermənilərin köçürülməsi, indiki müasir Ermənistanın ərazisində, eləcə də Gürcüstan və Azərbaycan ərazilərində tamamilə erməniləşdirmə siyasətinə gətirib çıxardı. 1828-ci ildə ermənilərin Qafqaza köçürülməsini şəxsən icra edən Qacar dövlətindəki Rusiya səfiri, XIX əsrin böyük rus şairi A.Qriboyedov ermənilərin əbədi olaraq burada yerləşdiriləcəyindən və bu torpaqlara sahib olacağından yerli müsəlman əhalisinin qorxduğunu vurğulayıb.

Yerli əhalinin qorxuları tamamilə doğru çıxdı. Ləğv edilmiş İrəvan xanlığının ərazisindən XIX-XX əsrlərdə, sonra isə burada yaradılmış Ermənistandan bütün azərbaycanlı əhalini qovdular - bu isə neçə yüz min insandır. Beləliklə, etnik təmizləmə və soyqırımı 1990-cı ildə azərbaycanlıların Sovet Ermənistanından tamamilə qovulması ilə sona çatdı. Lakin bununla iş bitmir. İrəvan xanlığında yaşayan azərbaycanlıların əsrlər boyu yaratdığı bənzərsiz, gözəl mədəniyyət və memarlıq abidələri də tamamilə yerlə-yeksan edilmişdir. Ümumilikdə, 800-dən çox məhv edilmiş tikili: məscidlər, saraylar, karvansaralar, hamamlar və digər ictimai binalar təkcə müasir İrəvan şəhərinin tarixi mərkəzində yerləşirdi.

Hazırda Yerevana xaricdən gəlmiş insanlar şəhərin orta əsrlərə aid tarixi memarlıq mərkəzinin mövcud olmamasına təəccüb edirlər. Axı hər bir şəhərin, illah ki əgər söhbət paytaxtdan gedirsə, öz “vizit kartı” - tarixi mərkəzi olur və bu şəhər hakimiyyətin və sakinlərin xüsusi qürur və qayğı predmetinə çevrilir. Məsələn, tbilisililər üçün bu Narınqala, Meteh məbədi, bakılılar üçün isə İçərişəhər, Qız qalası, Şirvanşahlar sarayı olduğu kimi. Yerevanda isə belə abidələr yoxdur. Buradan ortaya tamamilə qanunauyğun və kifayət qədər sadə suallar çıxır: Bəs öz şəhərlərinin çoxəsrlik tarixini iddia edən yerevanlılar nə ilə qürurlanırlar? Yerevanın yaşının guya qədim Romadan çox olduğunu söyləyən ermənilər nəyə əsaslanırlar? Əlbəttə buna aydın cavab verilmir. Bunun səbəbi var. Əvvəla, əsası XVI əsrdə qoyulmuş bu Azərbaycan şəhərində praktik olaraq orta əsr tikilisi qalmamışdır. Erməni millətçiləri ölkədə müsəlman sivilizasiyasının izlərini itirmək üçün onun tarixi memarlıq və mədəni irsini məhv etmişlər. Öz şərq təmtərağı ilə məşhur olan şəhər tanınmaz dərəcədə dəyişdirilmişdir. Bu dəhşətli proses bilərəkdən həyata keçirilmiş və tarixi özününküləşdirmək məqsədi güdmüşdür. İkincisi, bu gün Yerevanın ən əhəmiyyətli tarixi memarlıq tikilisi Göy məscid sayılır. Yeri gəlmişkən, o da ermənilər tərəfdən iki dəfə — 1918 və 1955-ci illərdə oda qalanmışdır. Hazırda onu fars məscidi kimi qələmə verməyə çalışırlar və indi məscidin ərazisində İran mədəniyyəti mərkəzi yerləşir...

Bu gün böyük təəssüf hissilə qeyd etməli oluruq ki, Yerevanın, daha dəqiq desək, İrəvanın nə vaxtsa öz memarlıq üslubuna malik olan və qeyri-adi koloriti ilə seçilən tarixi mərkəzi məzmunsuz, simasız olmuşdur. Erməni millətçiləri tərəfindən planlı və məqsədyönlü şəkildə vəhşicəsinə həyata keçirilən dağıntılar nəticəsində şəhərin əsas tarixi hissəsi əsrlər boyu vücuda gətirilmiş simasını itirmişdir.

2011-ci ildə İrəvan qalasının 500 yaşı tamam ola bilərdi. Bununla əlaqədar Bakıda 2011-ci ilin dekabrında Azer-Globe ictimai-siyasi tədqiqatlar institutu nəzdindəki Qafqaz tarixi mərkəzinin təşkil etdiyi konfrans olmuşdur. Orta əsrlər Azərbaycan memarlığının incilərindən olan bu qala əsrlər boyu görənləri valeh etmişdir. Lakin bu qədim memarlıq şedevri indi yalnız xatirələrdə, köhnə fotoşəkillərdə və arxiv sənədlərində hifz olunmuşdur, belə ki, Sovet Ermənistanı dövründə o tamamilə dağıdılmışdır. Ermənilər bu barədə susmağı üstün tuturlar.

Bununla belə, Ermənistan Bakıda İrəvan qalasının 500 illiyinə həsr olunmuş tədbirə dərhal reaksiya verdi. Ermənilər bu haqda eşidən kimi orta əsr İrəvan qalasının hara yoxa çıxmasını əsaslandırmağa çalışdılar. Lakin qalanın mərhələ-mərhələ vəhşicəsinə məhv edilməsi faktının dünya mətbuatında və ictimaiyyətində ikrah doğurduğunu anlayan Yerevanın hakimiyyət dairələri vəziyyətdən çıxmaq üçün adətləri üzrə fırıldağa əl atmalı oldular. 2012-ci ilin fevralında Yerevan meriyası guya şəhərin XIX əsrin sonları — XX əsrin əvvəllərinin memarlıq simasının yenidən yaradılmasını nəzərdə tutan “köhnə Yerevan” adı altında layihəyə başlanıldığını elan etdi. Lakin maraqlısı odur ki, düşünülmüş plana görə nəzərdə tutulub ki, paytaxtın müxtəlif guşələrindən salamat qalmış 100-150 illik tikilinin yeri dəyişilsin və məqsəd də guya o olub ki, tarixi mərkəzin bənzəri yaradılsın. Daha doğrusu, bir vaxtlar mövcud olan İrəvanın orta əsrlər mərkəzinin əvəzində XIX əsrin sonu — XX əsrin əvvəllərinin memarlığından saxta bir şey düzəldilməli idi. Amma sual doğur: əgər Yerevan dünyanın ən qədim şəhəri statusuna iddialıdırsa, onda bəs onun qədim memarlıq abidələri haradadır?

Bu layihənin planlaşdırıldığından xəbər tutan Azərbaycan bunun həyata keçirilməsində Ermənistan hökumətinə köməyini təklif etmişdir. Çünki məlum idi ki, indiki Ermənistan hakimiyyəti öz “köhnə Yerevan” uydurmasını ortaya atıb dünya ictimaiyyətini aldatmaq və öz vəhşiliklərinin izlərini ört-basdır etmək üçün növbəti cəhd edirlər. Müsəlman Azərbaycan memarlığına məxsus olmuş İrəvanın (indiki Yerevanın) əsl orta əsrlər simasından danışarkən Azərbaycan tərəfi qeyd etmişdir ki, onun ilkin görünüşünün yenidən yaradılması, ermənilərin az qala 8000 il burada yaşadığı və regionda yeganə etnos təşkil etdiyi iddiasında bulunan erməni ideologiyası postulatlarına daban-dabana ziddir. “Əgər Yerevanda həqiqətən şəhərin əvvəlki tarixi simasının bərpa edilməsini istəyirlərsə, biz erməni tərəfinə lütfkarcasına şəkil və çertyojları təqdim edə bilərik” (Fuad Axundov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası).

Lakin Yerevan meriyası bu təklifi mənasız “hesab etdi”. Onlar dedilər ki, “bizdə bütün zəruri layihələr, çertyojlar, sənədlər və fotoşəkillər var”. “Özünü Ermənistan paytaxtının bilicisi kimi göstərən və erməni tərəfində mövcud olmayan hansısa materiallara malik olduğunu düşünənlərin köməyinə ehtiyac yoxdur”.

Beləliklə, Ermənistan rəsmiləri Azərbaycanın köməyindən qəti şəkildə imtina etdiyi üçün bir vaxtlar Yerevanın tarixi mərkəzinin necə göründüyünü göstərmək məqsədilə tarixi fotoşəkilllərlə dolu kitab-albom nəşr etmək qərarına gəldik (Fuad Axundov). Rus fotoqrafiyasının pioneri Dmitriy İvanoviç Yermakovun çəkdiyi bu fotoşəkillər müasir Yerevanın baş planı yaradıcılarının əsl niyyətlərini əyani surətdə göstərir. Bu nadir şəkillərə baxdıqca xəyal bizi həmin illərə aparır, o vaxtkı hadisələr bir-bir gözlərimiz önündə canlanır. Bir sözlə, bu fotoşəkillər hər şeyi özləri nəql edirlər.



Ереванцы выражают недовольство действиями властей. Но увы, это всего лишь один эпизод многовековой эпопеи уничтожения следов истории азербайджанского прошлого. Еще более вопиющие факты не попали в объектив фотокамер

Ermənilər tərəfindən Azərbaycan xalqının təkrarsız maddi irsinin məhv edilməsi siyasəti davamlı surətdə həyata keçirilir, İrəvan qalasındakı ecazkar tikililər — saraylar, məscidlər, bazarlar, karvansaralar, hamamlar və s. orta əsr tikililəri süni şəkildə yararsız hala salınır və dağıdılırdı. İrəvanda məhv edilmiş bu abidələrdən hər biri, bu gün, yubadılmadan YUNESKO-nun Ümumdünya mədəni irsi siyahısına düşərdi. Qalanın acınacaqlı vəziyyəti XX əsrin əvvəllərində imperator Moskva arxeoloji cəmiyyətilə İrəvanın qubernniya rəsmiləri arasında qızğın yazışma predmeti olmuşdur. İmperator arxeoloji komissiyasının restavrasiya iclaslarında iki dəfə — 1910-cu ilin 6 oktyabrında və 1912-ci ilin 17 mayında — İrəvan qalasının Sərdar sarayı məsələsi müzakirə edilmişdir. Keçirilmiş müzakirələr nəticəsində İmperator arxeoloji komissiyası qərar vermişdir: 1) Saraya texniki baxış aktlaşdırılsın; 2) N.Marrdan saraya yerində baxmaq xahiş edilsin.

İmperator arxeoloji komissiyasının tapşırığı ilə saraya baxış keçirən akademik N.Marr bu haqda hesabat tərtib etmişdir. Hesabatı soyuqqanlılıqla oxumaq mümkün deyil, hər bir təfərrüat ürək sıxır. Akademikin dediyinə görə zaman və zəlzələ, əlbəttə, Sərdar sarayına öz təsirini göstərmişdir, lakin bu iki faktorun yetirdiyi zədələr ona görə böyükdür ki, son iki onillikdə keçmişin bu gözəl abidəsinə heç bir diqqət verilməmişdir. O qeyd edir ki, əksinə proses gedir, yəni sarayın tezliklə məhv olunmasında maraqlılıq göz qabağındadır və o, insan əliylə məhv olur.

Akademik N.Marr İrəvanın və Qacar imperiyasının hökmdarlarını, eləcə də qədim dastan qəhrəmanlarını təcəssüm etdirən güzgülü zalın yeddi unikal portretlərinin acınacaqlı aqibətindən danışarkən qeyd edir ki, onlar divar oyuqlarından çıxarılmayaraq elə qaşınıb-qopardılıb ki, kənarlarında parçalar qalıb. Sonra o yazır ki, güzgülü hissələr, o cümlədən tavanın karnizinin işləmələri eynən güzgülü tağtavan kimi daşa tutulub elə sındırılmışdır ki, şüşə qırıqlarının əlindən döşəməyə ayaq basmaq olmur. Zalın iki yan otağını ayaqyoluya çeviriblər. Baxmayaraq ki, məhz bu iki otaqların birində 1837-ci ildə I Nikolay gecələmiş və öz əliylə bunu divarda qeyd etmişdir. Sonra alim gördüyünə şahidlik edərək deyir ki, güzgülü zalın şüşəli hörgüsünün bir hissəsi dağıdılmış, həmçinin açıq boz plitələr, cilalanmış mərmərdən fontan da vəhşicəsinə vurulub sındırılmış və saraydan iki pəhləvan (bahadır, qəhrəman) portreti oğurlanmışdır.

Müəllif bir vaxtlar daxili divarları Molla Nəsrəddin lətifələri səhnələrinin yağlı boya ilə çəkilmiş şəkillərlə bəzədilmiş Yay pavilyonunun vəziyyətini ürəkağrısı ilə təsvir edir. O xatırladır ki, 1892-ci ildə keçmişin bu çox nadir abidəsini İrəvanın müdirliyi partlatmağı lazım bilmişdir, özü də bu vəhşilik işəgötürmə ilə edilmişdir. Akademik N.Marr tərəfindən peyğəmbərcəsinə deyilənlər —”görünür, biz yerli qədimliklərin sistemli şəkildə dağıdılması ilə qarşı-qarşıyayıq. Bu dağıdıcı fəaliyyət tədricən sonda nisbətən az nəzərəçarpan, lakin elm üçün əvvəlkilərdən az maraq kəsb etməyən qədimliklərin izini itirir” — təbii ki, Azərbaycan tarixi abidələrinə aiddir.

Akademik N.Marr İrəvan qalasındakı digər tikililərin vəziyyətini təsvir edərək öz çıxışını bu sözlərlə bitirir: “Bütün bu abidələr çox gözəl qoruna bilərdi. İndi qalanları saxlamaq olar və saxlamaq lazımdır: arxeologiyada dağıntılar da böyük əhəmiyyətə malikdir, amma bəlkə tamamilə dağıdılmanın qarşısını almağa vəsait tapıla. Hər şeydən əvvəl mühafizə lazımdır: çəpər (bir hissəsi darvazalarla mövcuddur), qaravolçu, qarət və zibilləmənin qarşısının alınması. Sadalanan abidələrin sırf elmi əhəmiyyəti ilə yanaşı, bundan az vacib olmayan digər, dövlət nöqteyi-nəzərindən zəruriliyi də unudulmamalıdır. Qərb sivilizasiyası ölkəsi kimi Rusiyanın prestiji onu tələb edir ki, onun adıyla Şərq ucqarında mədəniyyət sahəsində şərəfli bir şey yaratmaq mümkün deyilsə, heç olmasa o, dağıdıcı kimi bədnam edilməsin. Bu cür vicdan tələbi əksəri müsəlman əhalisindən ibarət olan məntəqələrdə (yəni İrəvan şəhərində — N.Marr) abidələrin axtarılıb tapılmasıyla yalnız gücləndirilir, özü də İran və Türkiyə ilə yaxın qonşuluqda olduğumuz üçün. Xüsusən Sərdar sarayına qayğılı münasibəti rus imperatorunun (yəni I Nikolayın) və rus yazıçısının (yəni A.S.Qriboyedovun) xatirəsi diktə edir. Yeri gəlmişkən, deyilənə görə Sərdar sarayında “Ağıldan bəla” komediyasının ilk tamaşalarından biri göstərilmişdir”.

Rusiya imperatoru II Nikolayın İrəvan şəhərinin fotoşəkilləri ilə şəxsən tanış olmasına, onun gözəlliyinə heyranlığına və onun bərpasına göstəriş verməsinə baxmayaraq, bu istiqamətdə heç bir iş yerinə yetirilməmişdir.

Beləliklə, İrəvan rəsmilərinin cinayətkar münasibəti İrəvan qalası tikililərinin bir hissəsinin dağıdılmasına, müxtəlif nadir freskaların, rəsmlərin və Xan sarayı əmlakının oğurlanmasına gətirib çıxarmışdır.

Artıq sonra bir-birini əvəz edən tarixi hadisələr sırası nəticədə orta əsrlər Azərbaycan mədəni mirasının tamamilə məhv edilməsini və bütün azərbaycanlı əhalinin Ermənistandan total surətdə qovulmasını şərtləndirmişdir.

Qanlı etnik təmizləmələr sayəsində hələ İrəvanda əhalinin 70 faizini təşkil edən azərbaycanlılar 1918-ci ildə artıq 20 faizə düşmüşlər (indiki Ermənistanda bu rəqəm sıfırdır), Azərbaycan toponimləri və hidronimlərinin sayı 2 mindən 60-a enmiş (hazırda bu göstərici də sıfıra yaxındır), Azərbaycanın min tarixi binasından isə ikisi-üçü salamat qalmışdır.

İrəvan şəhərinin tarixi hissəsinin bənzərsiz memarlıq abidələrilə yoxa çıxması Ermənistan üçün həmişə cavabı müşkül, başağrılı məsələ olmuşdur. Yeri gəlmişkən istənilən fırıldaqdan çəkinməyən erməni tərəfi tarixə əl gəzdirərək və aşkar faktları danaraq hamıya absurd versiya sırımağa çalışır ki, guya Yerevanın orta əsrlər mərkəzi ruslar tərəfindən məhv edilmişdir. Bu mənasız iddia cəfəngiyatdır. Əvvəla, tarixi sənədlərdən göründüyü kimi, qala rus-İran müharibəsi zamanı cüzi zədələr alsa da salamat qalmış, lakin ermənilər tərəfindən qarət edilmişdir. Yerevan Müəllimlər Seminariyasının müəllimi K.Şulginin məktubu bunu aydın göstərir: “...Sərdar sarayı onların qarətindən böyük xətər görmüşdür: hansısa Asatur deyilən meyxanaçı arağı qarət edilmiş daş-qaşa dəyişərək elə varlandı ki, nəvə-nəticəsinə sanballı var-dövlət qoyub getdi”. Rus ordusu qalanı dağıtmamışdır. Xanlıq ləğv edildikdən, erməni vilayəti, ardınca isə İrəvan quberniyası yaradıldıqdan sonra belə qala şəhərin qəlbi olaraq qalırdı. Nəinki məşhur tarixçilər, arxeoloqlar, memarlar, hətta rus imperatorları — I Nikolay və II Nikolay öz səslərini onun müdafiəsi üçün qaldırmışlar. Lakin gəlmə, köçürülmə ermənilərin İrəvandan Azərbaycan izlərini qazıb-süpürmək məqsədilə etdikləri vəhşiliklərin qarşısını heç nə almamışdır.

Z.Korkodyanın 1932-ci ildə nəşr edilmiş “Sovet Ermənistanının əhalisi” kitabında aşkar surətdə yazılıb ki, XIX və XX əsrdə qeydə alınmış 2310 yaşayış məntəqəsindəki 2000-ə yaxın toponim türk mənşəlidir.

Yerevanda və Ermənistanda ermənilərin Azərbaycanın orta əsrlər mirasının məhvinə yönəlmiş 100 illik barbarlıq planı belə nəticələnmişdir.

Şübhəsiz İrəvan-Yerevan bu iyrənc planın yeganə qurbanı deyil, lakin o, həyata keçirilən eksperimentin müvəffəqiyyətlə reallaşdığı və sonralar bu qondarma respublikanın bütün ərazisinə yayıldığı birinci şəhərdir.

**Ruscadan tərcümə edəni:**
**Ülfət KÜRÇAYLI.**

“Tamanyan başqa vektorun da - şəhərin köhnə maddi substansiyasının amansızcasına məhvinin - təməlini qoyub. Bütün planlaşdırma ədəb-ərkanı ilə yanaşı, demək olar ki, bütün tikinti 1924-cü ilin planı üzrə - təzə, müntəzəm, kvartal normayladır”.

* * *

“Bu gün görünür ki, Tamanyan təzə Yerevan kəşf edərkən, köhnəsinə münasibətdə, onun bütün ənənəvi əlamət və nişanələrinin, stereotip və işarələrinin ləğv edilməsini nəzərdə tutan köhnələri məhv etmək strategiyası çərçivəsində hərəkət edirmiş”.

* * *

“A.Tamanyana görə, baş plan “köhnə şəhərin saxlanmasını nəzərdə tutmurdu” (yəni, onun dağıdılmasını nəzərdə tuturdu. - F.A.).

* * *

“Bircə nəticə çıxır: erməni rəsmiləri Yerevanın mərkəzinin qədim simasının qorunub saxlanmasında heç vaxt maraqlı olmayıblar”.

* * *

“Yerevanda köhnə şəhər, onun klassik anlamında, bu gün artıq yoxdur”.

**A.İvanov, 2012-ci il.**

“2006-cı ildə Ermənistan hökuməti inzibati bölgü haqqında qanunda dəyişiklik etdi. M.Vardanyanın xəbər verdiyi kimi, bununla əlaqədar “daha 52 adın, onların “qulağa xoş gəlməməsi” və “xarici” tərkibli olması səbəbindən dəyişdirilməsi gözlənilir”.

“Xəritədə 40 minə yaxın coğrafi ad qeyd edilmişdir, bunların 8-10 minə yaxını xarici coğrafi addır və onlar erməni sözləri ilə dəyişdiriləcəkdir”.

**M.Vardanyan, 2006-cı il.**

“Əvvəllər Ermənistan ərazisində mövcud olmuş Yerevan, Eçmiədzin, Yeni Bəyazid, Aleksandropolsk, Zəngəzur, Dilican, Pəmbək qəzalarındakı 2310 yaşayış məntəqəsindən 2000-i Azərbaycan türklərinə məxsus idi”.

**Z.Korkodyan.**




Эривань. Сардарская мечеть. Фасад постройки во дворе



На руинах средневековой азербайджанской архитектуры XVI века сегодня красуется советская архитектура




Эривань. Сардарская мечеть




Эривань. Сардарский дворец. Фасад

# Bakı Beynəlxalq Avrasiya konfransına ev sahibliyi edəcək

## *Konfrans "Xəzər və Mərkəzi Asiya regionunda enerji sektorunda qlobal dəyişikliklərin təsiri" mövzusuna həsr olunub*



**Son illərdə ölkəmiz beynəlxalq, regional və qlobal əməkdaşlıq çərçivəsində əhəmiyyətli addımlar atır, bir sıra mühüm məsələlər üzrə ixtisaslaşmış, peşəkar əməkdaşlıq körpüsü rolunu uğurla həyata keçirir.**

**Bu baxımdan, geosiyasi dəyişikliklər və risklər, beynəlxalq maliyyə bazarlarında qeyri-sabitlik, neftin qiymətlərindəki kəskin dəyişmələr, enerji iqtisadiyyatının Orta Şərqdə və Asiyada, eləcə də, Xəzər regionundakı karbohidrogen ixraçatçılarını dərindən düşünməyə, birlikdə mövcud vəziyyəti gözdən keçirməyə və yeni imkanları tədqiq etməyə vadar edir.**

**18-20 oktyabr 2018-ci il tarixlərində Enerji İqtisadiyyatı üzrə Beynəlxalq Assosiasiyanın (İAEE) təşkilatçılığı və Bakı Ali Neft Məktəbinin ev sahibliyi ilə Bakıda III Avrasiya Konfransı keçiriləcək.**

**"Xəzər və Mərkəzi Asiya regionunda enerji sektorunda qlobal dəyişikliklərin təsiri" mövzusuna həsr olunan Beynəlxalq Konfrans - enerji məsələləri üzrə regional əməkdaşlıq platformasıdır.**

**Konfransın Təşkilat Komitəsinin sədri, İAEE-nin regional məsələlər üzrə vitse-prezidenti, İİETİ-nin direktoru, iqtisad elmləri doktoru, professor Vilayət VƏLİYEV beynəlxalq tədbir haqqında müxbirimizin suallarını cavablandırmışdır.**

**–Vilayət müəllim, ilk sualımız Enerji İqtisadiyyatı üzrə Beynəlxalq Assosiasiyası haqqındadır. İAEE-nin yaranma tarixi, fəaliyyəti və əməkdaşlıq məsələləri barəsində oxucularımıza məlumat verməyinizi istərdik.**

–Miqyasına görə bü günədək dünyada ən böyüyü hesab olunan 70-ci illərin enerji böhranı sahəvi mütəxəssislər üçün yeni istiqamətlərin yaranmasına şərait yaratdı.

İAEE məhz elmi, tətbiqi, səmərəli cəhətlərin inteqrasiyası ideyası ilə böhranın təsirlərinin öyrənilməsi və yeni həll yolların axtarılması istiqamətində 1977-ci ildə təsis edilmişdir, qurumun hazırda dünyanın 100-dən çox ölkəsindən üzvləri vardır.

Qısacası, İAEE enerji və əlaqəli məsələlərlə məşğul olan hökumət, elm və biznes sahəsində fəaliyyət göstərən peşəkar mütəxəssislərin mübadilə platforması, bu məqsədlə yüksək reytinqli elmi-tətbiqi nəşrlər, məlumat bazaları və analitik bülletenlər formalaşdıran, yüksək titullu beynəlxalq və regional konfranslar, elmi-texniki tədbirlər, ixtisaslaşdırılmış müəllif seminarları keçirən bir təşkilatdır.

İAEE dünya elmi mühitində çox yüksək standart və nüfuza malik olan illik beynəlxalq və ayrı-ayrı aktual mövzulara həsr olunan regional konfranslar təşkil edir. Belə ki, oktyabr ayında Bakı Konfransından sonra, noyabr ayında Çində konfrans, dekabr ayında Bolqarıstanda və İtaliyada simpoziumlar təşkil ediləcək. 2019-2020-ci illərdə Kanadada, Fransada, Amerikada, Sloveniyada və Argentinada keçiriləcək beynəlxalq konfranslardan bir neçəsi üçün məqalələrin qəbulu elan edilmişdir.

–Qeyd edim ki, İAEE-nin "Enerji" (The Energy Journal) və "Enerji İqtisadiyyatı və Ətraf Mühit Siyasəti" (Economics of Energy Environmental Policy) adlı jurnalları müvafiq olaraq, beynəlxalq elmi nəşrlər arasında 2.675 və 2.088 kimi yüksək İmpakt faktor göstəricilərinə malikdirlər. Tədqiqatçılarımızın bu yüksək reytinqli elmi jurnallarda nəşr olunmaq imkanlarından istifadə etmələri, xüsusilə, tədqiqatlarının beynəlxalq miqyasda tanınması son dərəcə vacibdir.

Müqayisə üçün deyim ki, qardaş Türkiyə İAEE-nin imkanlarından geniş və yüksək səviyyədə istifadə edən ölkələrdən biridir. Burada universitetlərlə sıx əməkdaşlıq əlaqələri qurulmuş, eləcə də, İAEE-nin xətti ilə çoxsaylı regional konfranslar, ixtisaslaşdırılmış seminar və müzakirələr keçirilir. Heç də təsadüfi deyildir ki, Türkiyənin Boğaziçi Universitetinin Enerji Siyasətləri Tədqiqat Mərkəzinin (EPAM) rəhbəri, professor Gürkan Kümbaroğlu 2016-cı ildə qurumun prezidenti seçilmişdir.

Azərbaycana gəldikdə isə bu əlaqələr son illərdə nisbətən genişlənməyə başlamışdır. Belə ki, ölkəmiz enerji təhlükəsizliyi sahəsində artan rolu ilə İAEE-nin Avrasiya regionunda fəaliyyətinin genişlənməsinə əhəmiyyətli töhvə verir. Bu çərçivədə 28-31 avqust 2016-cı il tarixlərində **"Xəzər regionunun inkişaf edən enerji iqtisadiyyatı: çətinliklər və imkanlar"** mövzusunda **I Avrasiya Konfransı** Bakıda keçirilmişdir. **"Avrasiyada enerji: çağırışlar, risklər və imkanların iqtisadi perspektivləri"** mövzusuna həsr olunan **II Avrasiya Konfransı** 12-14 oktyabr 2017-ci il tarixlərində Xorvatiyanın Zaqreb şəhərində baş tutmuşdur.

**–İAEE ilə əməkdaşlığınız neçənci ildə başladı və hazırda hansı istiqamətdə işlər aparırsınız?**

–Qeyd etdiyim kimi, İAEE dünyada enerji sahəsində peşəkar mütəxəssislərdən ibarət beynəlxalq cəmiyyətdir. İAEE ilə əməkdaşlığımın tarixi ötən əsrin 90-cı illərdən başlamışdır.

Həmin dövrlərdə bildiyiniz kimi ölkəmiz ikinci dəfə yenidən müstəqillik qazanmışdı və 1994-cü ildə Əsrin müqaviləsinin imzalanması ilə dünyaya çıxış və inteqrasiya yeni vüsat almağa başlayırdı. Məhz həmin dövrlərdə enerji tədqiqatları ilə yanaşı, Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi sahəsində fəaliyyət göstərən xarici şirkət və mütəxəssislərlə elmi əlaqələrim İAEE ilə əməkdaşlığa təkan vermiş oldu.

Xüsusilə vurğulanmalı əsas məqamlardan biri də məhz ondan ibarətdir ki, həmin dövrdə ümumilli Lider Heydər Əliyevin rəhbərliyi ilə uzunmüddətli Neft Strategiyası hazırlanmış və qəbul edilmişdir. Heç də təsadüfi deyildir ki, məhz həmin Strategiyanın əsasını xarici sərmayənin və təcrübənin cəlb olunması, çoxvariantlı ixrac sisteminin yaradılması və əldə olunmuş gəlirlərin səmərəli, şəffaf idarə edilməsi və istifadə olunması kimi mühüm məsələlər təşkil etmişdir.

Nəhayət, uzun illər səmərəli əməkdaşlığın nəticəsi kimi, **2016-cı ildə** İAEE-nin Rəyasət Heyətinə üzv, daha sonra **2017-ci ildə** Regional məsələlər üzrə vitse-prezidenti seçilmişəm. İAEE-də belə yüksək vəzifədə MDB məkanı ilk dəfə təmsil olunur. Bununla, Şərqi Avropa, Qafqaz və MDB məkanında İAEE-nin fəaliyyətinin genişləndirilməsi və digər regionlarla əlaqələndirilməsi istiqamətində işlər aparılır.

Bunun nəticəsidir ki, 18-20 oktyabr 2018-ci il tarixlərində **III Avrasiya Konfransı** Bakı Ali Neft Məktəbində təşkil edilir, 2019-cu ildə Konfransın Qazaxıstanda keçirilməsi təklifi üzrə müzakirələr aparılır. Paralel olaraq, yaxın gələcəkdə həmçinin, ölkəmizdə və Mərkəzi Asiya ölkələrində yay məktəblərinin, müəllif seminarlarının təşkil edilməsi üzrə işlərin aparılması davam etdirilir.

**–Bildirdiniz ki, I və III Avrasiya Konfransları Bakıda keçirilir, niyə məhz Bakı?**

–İAEE-nin Avrasiya konfransının keçirilməsi ideyasını zamanında biz verdik və məhz Bakıda keçirilməsini təkid etdik. İlk konfransa SOCAR və Energetika Nazirliyi dəstək verdi. O zaman növbəti konfransların birinin Bakı Ali Neft Məktəbində keçirilməsi vurğulandı.

Bilirsiniz, bu gün möhtərəm prezidentimiz cənab İlham Əliyevin apardığı ardıcıl siyasət nəticəsində Azərbaycanın dünya enerji təchizatında verdiyi töhfə, regional enerji təhlükəsizliyində oynadığı rol, ən möhtəşəm enerji layihələrinin qərar verildiyi və icra olunduğu məkan olduğu hər kəsə məlumdur. Bu, sadəcə adi işlər və qərarlar deyildir, buna bağlı olan tarixi ənənə, zəngin təcrübə, uzaqgörən siyasət və möhkəm iradə durur. Enerji sektorunun inkişafı istiqamətində əhəmiyyətli işlərlə yanaşı, çox böyük tədbirlər, o cümlədən, bu il 25 illik yubileyi qeyd olunan, neft-qaz sahəsinin ən yüksək səviyyəli rəhbər və mütəxəssislərinin mübadilə platforması olan ənənəvi Beynəlxalq Xəzər Neft və Qaz Sərgisini və həmin ərəfədə Cənub Qaz Dəhlizinin ilk hissəsinin rəsmi açılış mərasimini qeyd etmək olar.

Azərbaycan Sovetlər birliyində neft-qaz axtarışı, kəşfiyyatı və işlənilməsi üzrə təhsilin verildiyi, elmi tədqiqatların aparıldığı və mühəndis işlərinin yerinə yetirildiyi ən böyük və vahid məkan idi. Rusiya və Orta Asiya Respublikalarında, eləcə də xarici ölkələrdə energetika sahəsində işlər əsasən Azərbaycanın alim və mütəxəssisləri tərəfindən həyata keçirilirdi.

Müasir dövrümüzün bu günkü zərurəti neft-qaz sahəsindəki mövcud olan elmi potensialın və təhsildəki ənənələrimizin qorunması, bu sahədə biliklərin xarici ölkələrdə fəaliyyət göstərən mütəxəssis və tərəfdaşlarla müzakirə olunması, dövlət, elm və biznesin inteqrasiyasıdır. Bu məqsədlə dünyanın müxtəlif ölkələrindən yüksək səviyyəli mütəxəssislərin iştirakı ilə ölkəmizdə bu kimi beynəlxalq tədbirlərin davamlı şəkildə keçirilməsi zəruri və təqdirəlayiq haldır.

Odur ki, enerji iqtisadiyyatının mühüm problemlərinin öyrənilməsi, dünyada baş verən qlobal meyillərin təhlili, qabaqcıl dünya təcrübələrinin tədqiqi və tətbiq imkanlarının şərh edilməsi, həmçinin, görülmüş işlərin geniş auditoriyaya təqdimatı üçün bu konfrans əhəmiyyətli tədbir olacaqdır.

**–Konfransın Təşkilat Komitəsinin sədri kimi konfransın keçirilmə yeri, qonaqlar və məruzələr barəsində məlumat verməyinizi istərdik.**

–Qeyd etdiyim kimi, İAEE elmi-texniki tədbirləri bir qayda olaraq, sahəvi mütəxəssislərin hazırlandığı qabaqcıl universitetlərdə keçirilməsinə üstünlük verir. Bu isə öz növbəsində, həmin ali məktəblərlə uzun müddətli əməkdaşlıq zəmini yaradır. Bu mənada, İAEE-nin III Avrasiya Konfransı məhz Bakı Ali Neft Məktəbində keçiriləcəkdir.

Fürsətdən istifadə edərək, Konfransın Bakı Ali Neft Məktəbində keçirilməsinə dəstək verdiklərinə görə İqtisadiyyat və Energetika Nazirliklərinin və SOCAR-ın rəhbərliyinə, rektor Elmar QASIMOVA dərin təşəkkürümü bildirirəm.

Belə bir mötəbər tədbirin Bakı Ali Neft Məktəbində keçirilməsi heç də təsadüfi xarakter daşımır. Hazırda Bakı Ali Neft Məktəbi nəinki Azərbaycanda, eləcə də, dünyada tanınan təhsil ocağıdır. Zaman keçdikcə bu təhsil ocağının əlaqə coğrafiyası genişlənmiş, təhsil sahəsində qazandığı nailiyyətlər, təhsillə yanaşı elmi tədqiqatlara verilən dəstəklər, mütəmadi olaraq, təşkil edilən yüksək səviyyəli elmi tədbirlər öz bəhrəsini vermiş, onun dünyada tanınmasına imkan yaratmışdır. Bakı Ali Neft Məktəbi eyni zamanda enegetika sahəsində mütəxəssislərin, müəssisələrin, transmilli şirkətlərin, universitet və elmi-tədqiqat institutlarının qovşağı, laborator və əyani tədqiqatların tətbiq mərkəzidir.

Konfrans Azərbaycan Respublikası İqtisadiyyat və Energetika Nazirlikləri tərəfindən dəstəklənir, SOCAR, BP, Azərbaycan Enerji Encinirinq and Consultinq, SOCAR Türkiyə, Schneider Electric və AzEkoKonsaltinq şirkətləri tədbirin sponsorlarıdır.

İAEE-nin fəaliyyətdə olan, seçilmiş və keçmiş prezidentləri, çox mötəbər rəhbər heyəti və üzvləri, eləcə də, dünyada və regionda energetika sahəsində tanınmış mütəxəssislər konfransda iştirak edəcəklər.

Azərbaycan Respublikası Energetika və İqtisadiyyat Nazirliklərinin, SOCAR-ın, "Azərenerji" SC-nin, "Azəristiliktəchizat" SC-nin, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin, Azərbaycan Respublikası Tarif Şurasının Katibliyinin, Sumqayıt Kimya Sənaye Parkının, "Cənub Qaz Dəhlizi" QSC-nin, SOCAR Polymer və digər təşkilatların rəhbər və yüksək nümayəndə heyətləri açılış və plenar sessiyalarda sədr və məruzəçi qismində iştirak edəcəklər. Eyni zamanda, İAEE nümayəndə heyəti ilə yanaşı, Türkiyə Respublikası Enerji və Təbii Ehtiyatlar Nazirliyinin, Qazaxıstan Bərpa Olunan Enerji Assosiasiyasının, Avropa Enerji Tənzimləyicilərinin Əməkdaşlıq Agentliyinin, Gürcüstan Enerji və Su Təchizatı Məsələləri üzrə Tənzimləyici Komissiyasının, "Gürcüstan Dövlət Elektrik Sistemləri" ASC-nin, "ENEDİS" şirkətinin, Rumıniya Elmlər Akademiyasının, Rumıniyanın Atom Enerji Agentliyinin, Beynəlxalq Yaşıl Texnologiyalar və Sərmayələr Mərkəzi və digər təşkilat və ölkələrdən gələn qonaqlar müxtəlif plenar iclaslarda məruzələrlə çıxış edəcəklər.

Konfransın plenar iclaslarında region və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən mövzular, o cümlədən Avrasiya Məkanında Enerji Təhlükəsizliyinə Qlobal Çağırışlar: Tələb və Təklif Problemi; Enerji Bazarları və Tənzimləmə; Elektrik Enerjisi Təchizatının Dayanıqlığı; Avrasiyada Enerji Səmərəliliyi: Ənənəvi Enerji, Alternativ Enerji və İstilik Təchizatı; Neft və Qaz: İqtisadiyyat, İnnovasiyalar və Sənayenin İnkişafı mövzuları müzakirə ediləcəkdir.

Bununla yanaşı, ölkəmizi təmsil edən tədqiqatçılarla yanaşı Çili, İspaniya, Pakistan, Hindistan, Birləşmiş Krallıq, Türkiyə, Sinqapur və Qırğızıstandan olan tədqiqatçıların elektrik enerjisinin modelləşdirilməsi; neft bazarları: qiymət, tələb və gəlir; regional qaz ticarəti; texnoloji inkişaf; enerji səmərəliliyi və təchizatda təhlükəsizlik; elektrik enerjisinin istehsalı və rəqabəti mövzularında təqdimatları dinləniləcəkdir.

**–Konfransdan sonra gələcək planlar və əməkdaşlıq imkanlarına dair fikirlərinizi bölüşməyizi istərdik.**

–Ümumiyyətlə, İAEE-nin təşkilatçılığı ilə mütəmadi olaraq, keçirilən konfransları, seminarları, xüsusi ilə haqqında söhbət açdığımız Avrasiya Konfranslarına dair təşkilatın nəşrləri, informasiya və tədqiqatların nəticələrinin təqdimatı, əməkdaşlıq imkanlarının genişlənməsi üzrə töhfələrini bir-neçə istiqamətə ayırmaq olar.

Əvvəla, onu qeyd etmək istərdim ki, konfransın Bakı Ali Neft Məktəbində keçirilməsi bu tədris ocağı ilə İAEE arasında gələcək təhsil-tədqiqat sahəsində əməkdaşlığın güclənməsinə ciddi təsir göstərəcək, bu iki qurumun peşəkar mütəxəssisləri, tələbə və professor-müəllim heyəti arasında tədqiqat və praktiki biliklərin əldə olunması və paylanmasına təkan verəcəkdir.

Bir məqamı daha əlavə edim ki, Konfransın Təşkilat Komitəsi SOCAR-ın Türkiyə və Boğaziçi Universitetinin dəstəyi ilə konfransda iştirak etmək üçün Türkiyədən müsabiqə əsasında beş tələbə seçmiş və onları Bakıya dəvət etmişdir. İAEE-nin təşkilatçılığı həyata keçirilən bu işdə əsas fikir Bakı Ali Neft Məktəbinin və Türkiyəli tələbələrin əməkdaşlığının qurulması, İAEE-nin resurs imkanlarından istifadə edilməklə bu şəbəkənin gələcəkdə genişləndirilməsi, Azərbaycanla yanaşı, digər ölkələrdən sahəvi, xüsusilə gənc tədqiqatçıların cəlb edilməsidir.

Digər bir tərəfdən, həm regional, həm də Azərbaycan üçün enerji təhlükəsizliyi və elektrik enerjisi təchizatının dayanıqlığı; enerji sistemində institutional islahatların aparılması; enerji bazarının və tənzimləmə mühitinin, o cümlədən tariflərin formalaşdırılması; enerji səmərəliliyi, bərpa olunan enerji mənbələrindən istifadə kimi problemlərin həlli üzrə müasir və alternativ yanaşmaların ortaya qoyulması vacibdir. Enerji sektorunun göstərilən və əlaqəli məsələləri üzrə İAEE-nin tədbir, nəşr və informasiya platforması şəklində geniş, yaranmış hər-hansı problemin həllinə yönəlmiş qısamüddətli və çevik dəstək imkanları, səriştəli mütəxəssis şəbəkəsi və resursları vardır. Bu istiqamətdə praktiki dəstəyin göstərilməsi və kadr potensialının artırılması üçün İAEE-nin şəbəkəsi üzərindən onun peşəkar üzvləri və resurs imkanlarından istifadə etməklə ixtisaslaşmış müəllif seminarlarının təşkili, informasiya, tədqiqat, təklif və məsləhət dəstəyinin verilməsi əsasında dövlət, akademiya və biznesin bir platformada iştirakına şərait yaratmaq gələcək planlarımızın tərkib hissəsidir.

Nəhayət, iqtisadi tədqiqatların analitik səviyyəsinin artırılması və nəticələrinin yüksək nüfuza malik jurnallarda çap edilməsi bugün ölkəmiz üçün ən ümdə məsələlərdən biridir. Bu istiqamət xüsusilə diqqətdə saxlanılaraq, regionda, xüsusilə də ölkəmizdə sahəvi aktual mövzuların müzakirəsi və analitik səviyyəsi yüksək olan birgə tədqiqatların aparılması üçün seçilməsini düşünürük. Bu məqsədlə İAEE-nin qeyd etdiyim hər iki nüfuzlu jurnallarında elmi məqalələrin çap olunması istiqamətində iş birliyinin formalaşdırılmasını düşünürük. Eyni zamanda İAEE şəbəkəsi vasitəsi ilə dünyanın digər yüksək reytinqli nəşrlərinə çıxışın əldə edilməsi də mümkün olacaqdır. Çətin olsa da, yaxın gələcəkdə İAEE-nin Enerji Jurnalının region ölkələri üzrə xüsusi buraxılışının hazırlanması planlarımızın tərkib hissəsidir.

Bundan başqa, Konfrans çərçivəsində ölkəmizdə İAEE-nin regional nümayəndəliyinin təsis edilməsi də əməkdaşlıq gündəliyinin aktual mövzularından biridir.

**Müsahibəni apardı:**
**Nəriman CAVADOV,**
**"Respublika".**

# İrəvanda Frankofoniya sammiti: rəsmi Parisin tarixi səhvi və fransızların "həmyerliləri"

*Böyük dövlətlər müstəqil xarici siyasət yeridərlər. Bunu müstəqil olan hər bir ölkə tam dərk edir. Ancaq müstəqil siyasət yeritmək qətiyyən ədalətsiz, haqsız və qeyri-obyektiv olmaq anlamına gəlməz. Üstəlik, bu "müstəqil siyasət" təcavüzkara, haqsıza arxa olmağı nəzərdə tutursa, çox zərərlidir, bütün dünya üçün təhdiddir. Frankofoniya təşkilatının 17-ci sammitinin İrəvanda keçirilməsi özlüyündə qeyri-adi deyil. Ermənistan həmişə qeyri-sabit, bir geosiyasi cəbhədən digərinə qaçmaqla xarakterizə olunan mövqe tutub. Olmasın "rusofoniya", olsun "frankofoniya" - İrəvan üçün elə də fərq etməz. Təki danışanlar ermənipərəst olsunlar. Bu baxımdan Fransa Prezidenti 17-ci sammitdə çox fərqləndi. Onun ifadə etdiyi fikirlərin dünya siyasətinə hansı təsiri göstərəcəyi bir qədər sonra aydın olacaq. Ancaq söylənən fikirlərdə Cənubi Qafqaza aid vacib məqamlar olduğundan onların üzərində indidən geniş dayanmağa ehtiyac görürük.*

### Azərbaycan-Fransa münasibətləri: Bakının cəsarətli və konstruktiv addımları

Azərbaycan müstəqillik əldə edəndən sonra ölkəmiz Fransa ilə ən yüksək səviyyədə münasibətlər qurmaq istiqamətində davamlı addımlar atıb. Ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə bu proses sistemli, ardıcıl və dərindən düşünülmüş məzmun kəsb edib. Heydər Əliyev Prezident kimi xaricə ilk rəsmi səfərini Parisə edib. Azərbaycan Prezidenti seçildikdən sonra (3 oktyabr 1993-cü il) Ulu Öndər Fransa Prezidenti Fransua Mitteranın dəvətini qəbul edərək bu ölkəyə gedib. Orada Ümummilli Liderin apardığı danışıqlar müsbət nəticə verib. Fransa Azərbaycanla əlaqələri inkişaf etdirməyin zəruriliyini dərk edib.

Prezident İlham Əliyev Ulu Öndərin siyasi kursunu inkişaf etdirərək, Fransa ilə əlaqələrə ayrıca önəm verib. Bunu dövlət başçısının Fransaya olan səfərləri və həyata keçirilən birgə proqramlar təsdiq edir. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev də Prezident seçildikdən sonra ilk xarici səfərini Fransaya edib (yanvar, 2004).

2016-cı ilə olan məlumata görə, Azərbaycanda 40-dan çox Fransa şirkəti fəaliyyət göstərir. Təbii ki, bu, son hədd deyil. Çünki dövlət başçısı İlham Əliyev Fransa ilə əlaqələrin daha da genişlənməsi istiqamətində addımlarını davam etdirir. Təkcə bu ilin yayında Prezident İlham Əliyevin Fransaya səfəri zamanı 11 fransız şirkəti ilə müxtəlif sahələri əhatə edən və 2 milyard dollar həcmində sərmayəni nəzərdə tutan müqavilələr imzalanıb.

Bununla bağlı Azərbaycan Prezidenti deyib: "Azərbaycan ilə Fransa şirkətləri arasında 2 milyard dollardan çox dəyərində müqavilələr imzalanıb. Bu müqavilələr reallaşdırıldığı təqdirdə onların həcmi daha da artacaq. Həmçinin enerji təhlükəsizliyi məsələsi müzakirə olunub, "Cənub Qaz Dəhlizi" layihəsinin uğurla icra edildiyi vurğulanıb. Neft-qaz sektoru, infrastruktur, nəqliyyat, kosmik sənaye, hava nəqliyyatı, metro tikintisi, hərbi-texniki sahələrdə əməkdaşlıq məsələləri də müzakirə olunub".

Bəs bütün bunların qarşılığında rəsmi Parisin Azərbaycan siyasəti hansı məzmunda olub? Çox təəssüf ki, məsələnin bu tərəfi ilə bağlı bir sıra mənfi faktları xatırlamalı oluruq. Hər şeydən öncə, deməliyik ki, Azərbaycan müstəqil dövlət kimi heç bir ölkənin daxili işlərinə qarışmır və münasibətlərini hansısa xüsusi məqsədə görə qurmur. O cümlədən rəsmi Bakı Fransanın hansı dövlətlə necə əlaqələr yaratmalı olmasına qətiyyən qarışmaz. Lakin Azərbaycanın dövlət maraqlarına və suverenliyinə zərər verə biləcək davranışları da diqqətdən kənarda saxlaya bilməz. Fransa ilə münasibətlərdə məsələnin bu aspekti həm də ona görə daha həssasdır ki, bu ölkə ATƏT-in Minsk qrupunun üç həmsədrindən biridir. Fransa üzərinə belə bir öhdəlik götürüb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq çərçivəsində və sülh yolu ilə həllində vasitəçilik edəcək. Əgər bu şərtlərdən kənara çıxılırsa, Azərbaycanın haqlı irad bildirməsinə kimsə mane ola bilməz, çünki söhbət Azərbaycanın müstəqilliyindən, ərazi bütövlüyündən və suveren dövlət kimi gələcəyindən gedir. Bu anlamda Fransa tərəfindən hansı addımlar atılıb?

Öncə qeyd edək ki, Prezident Emmanuel Makron bu ilin yanvarında Fransada yerləşən Erməni Təşkilatlarının Koordinasiya Şurası (CCAF) tərəfindən qondarma "erməni soyqırımı"nın anım mərasiminə dəvət edilərkən, CCAF-ın həmsədrləri Ara Toranyan və Murad Papazyan onu Türkiyəni tənqid etməyə və Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə səfər etməyə səsləyib.

### Fransız deputatlar və merlər: işğal ərazilərinə qanunsuz səfərlər

Ancaq bununla yanaşı, Fransa parlamentinin bir sıra üzvləri və şəhər merləri Dağlıq Qarabağa səfərlər edirlər. Məsələn, Fransanın "Xalq hərəkatı uğrunda ittifaq" parlament fraksiyasının deputatı Gi Tesye Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə səfər edib və orada separatçı rejimin nümayəndələri ilə görüşlər keçirib. Bundan başqa, "Fransa-Dağlıq Qarabağ" dostluq qrupu yaradılıb. Fransa rəsmiləri Ermənistanın son 25 ildə işğalda saxladığı Dağlıq Qarabağ bölgəsinə səfərlər həyata keçiriblər. Digər heç bir dövlətin rəsmi şəxsləri bu addımı atmayıblar.

Fransanın Alforvil və Valans şəhərlərinin merləri də Dağlıq Qarabağa səfərlər ediblər. Bu, birbaşa Ermənistanın və havadarlarının Azərbaycan ərazilərində yaratdığı qondarma separatçı rejimin təşviqinə xidmət edir. Bu bağlılıqda Fransada türklərə qarşı terror aktları törədən canilərin milli qəhrəman obrazlarının yaradılması, onların adına küçə və meydanların verilməsi olduqca təəssüfedicidir. Fransa ədaləti, demokratiyanı, insan haqlarını və obyektivliyi tam itirmiş kimi görünür.

Bunlardan başqa, Fransanın ayrı-ayrı şəhərləri Dağlıq Qarabağla müqavilələr imzalayıblar. Fransız şirkətlərinin işğal edilmiş Azərbaycan ərazilərində fəaliyyəti barədə informasiyalar mövcuddur. Bu kimi proseslərin fonunda iki məqam maraq doğurur. Birincisi, Fransanın canfəşanlıq etməsinə rəğmən, Ermənistanın faktiki olaraq rəsmi Parisi gözardına almasıdır. İkincisi, Frankofoniyanın məhz Ermənistanda keçirilməsidir.

Birinci məqamla bağlı Fransanın Ermənistandakı keçmiş səfiri Anri Renonun etirafı diqqət çəkir. O deyir ki, Ermənistanda fransız dilini öyrənənlərin sayı hətta SSRİ dövründə olduğundan da aşağıya düşüb. Ermənistanla Fransa arasında əmtəə dövriyyəsi 100 milyon dollar həddini ötməyib və illik mal dövriyyəsində də heç bir artım yoxdur. Əksinə, azalma müşahidə edilir. "Orange" mobil operatoru Ermənistanın mobil operatorları bazarına daxil olsa da, sonradan səhmlərini Rusiyaya məxsus şirkətə satmağa məcbur oldu. "Karfur" dükanlar şəbəkəsi Ermənistanda reallaşa bilmədi. Bu şirkəti də Rusiya ilə sıx əməkdaşlığı olan erməni biznesmenlərindən biri ələ keçirdi. İndi İrəvanda 1-2 fransız mağazası var və Nikol Paşinyan Fransaya səfəri zamanı onları qoruyacağına söz verib. Bu, əməkdaşlıq və dostluq haqqında tipik erməni mövqeyidir.

### Makronun "erməniofoniyası": siyasət və "həmyerli" axtarışları

Lakin Prezident Emmanuel Makron Frankofoniya üçün İrəvana gəldi. Orada, sözün düzü, bir qədər qəribə fikirlər səsləndirib. O deyib: "Mən Frankofoniyanın 17-ci sammitində iştirak etmək üçün Ermənistanda olmağıma görə şadam. Ermənistan bizim üçün çox əzizdir. Ermənilər Fransa tarixini yaradıblar, bizim, demək olar ki, yarım həmyerlilərimizdir. Ermənilər bizim tariximizin bir hissəsi və fəxr predmetidir".

Maraqlıdır, Fransa tarixini ermənilər yaradıblarsa və fransızlarla ermənilər həmyerlidirlərsə, niyə Ermənistanı Qafqazda yaradıblar? Məlumdur ki, fransızlar qafqazlı deyillər və ermənilərlə həmyerlidirlərsə, onda ermənilər də qafqazlı deyillər. O halda belə çıxır ki, müəyyən dairələr məqsədli şəkildə ermənilərə Cənubi Qafqazda dövlət yaradıblar ki, bölgə xalqlarının başına bəla olsun. Biz cənab E.Makrona demək istərdik: cənab Fransa Prezidenti, aparın həmyerlilərinizi bu başıbəlalı regiondan, bununla Siz qafqazlılara böyük yaxşılıq etmiş olarsınız!

E.Makron daha dərinə gedərək bəyan edib: "Fransızlar ermənilərə öz ürəklərinin qapılarını kübarca açıblar. Bu iki ölkəni sizi çox sevən Fransa xalqı birləşdirir. Bizim xoşbəxtliyimiz də, kədərimiz də birdir. Ermənilər fransızların ürəklərindədir".

Daha sonra Fransa Prezidenti Parisin "erməni soyqırımı"nı heç zaman unutmayacağını da deyib. Aydın görünür ki, bununla rəsmi Paris həyata keçirdiyi xarici siyasətin bir sıra mühüm istiqamətlərini açıq ifadə edib. Fransa Ermənistana tam dəstək verdiyini və bütün məsələlərdə onun yanında olduğunu nümayiş etdirib. Elə isə belə bir tərəfkeş dövlət hansı haqla ATƏT-in Minsk qrupuna həmsədrlik edir? Eyni məntiqlə ermənilər və avropalılar hansı üzlə Türkiyəni tərəfkeşlikdə ittiham edirlər? Türkiyə təcavüzə məruz qalanın yanındadır, onun etnik-milli kimliyi önəmli deyil. Ankara ədalət tələb edir, ayrı-seçkiliyə qarşıdır.

Fransa isə birbaşa bəyan edir ki, təcavüzkarın yanındadır. Hətta bu işğalçı fransızların qəlbindədir, onlar fransızlarla həmyerlidirlər. Minsk qrupunun həmsədri və BMT Təhlükəsizlik Şurasının daimi üzvü ki-




mi Fransa bu cür ikili standartlarla hansı uğurları qazana bilər? Rəsmi Paris azərbaycanlıların dostudurmu, düşmənidirmi?

Bu suallar indi çox aktualdır. Həm də ona görə ki, Fransa Avropa İttifaqındakı rolu və mövqeyinə görə Azərbaycan üçün əhəmiyyətli tərəfdaşdır. Fransa Aİ-nin Almaniya və İtaliya ilə bərabər üç mühüm üzvündən biridir. Nəhayət, Azərbaycan digər həmsədr dövlətlərlə yanaşı, Fransadan da münaqişənin həllində qətiyyətli addımlar gözləyir. Bunlardan başqa, Fransa Avropanın iqtisadiyyatında çox mühüm yer tutur, xarici siyasətdə aparıcı mövqedədir. Onu da nəzərə alaq ki, Azərbaycanın ticarət dövriyyəsinin təxminən yarısı Avropa İttifaqı ölkələrinin payına düşür. Yuxarıda vurğuladığımız faktlar da göstərir ki, Fransa bu sahədə də önəmli partnyordur. Azərbaycana daxil olan xarici investisiyaların 6,7 faizi Fransanın payına düşür.

### Təmkinli, konstruktiv və səbirli Azərbaycan: hər şeyin bir həddi vardır

Artıq qeyd etdiyimiz kimi, rəsmi Bakı bütün bunları diqqətə alır və Fransa ilə əlaqələrin inkişafı üçün ardıcıl addımlar atır. Qarşılığında isə Frankofoniyadakı çıxış və bir sıra fransız deputatın, merlərin işğal olunmuş ərazilərə qanunsuz səfərləri... Müqayisə aydındır. Əslində isə Fransa Ermənistanla olan münasibətlərindən ədalət naminə istifadə edə bilər. Çünki əgər onlar tarixən yaxın əlaqələrə malikdirlərsə, onda Paris İrəvana anlada bilər ki, başqalarının torpaqlarını işğal etmək haqsızlıqdır, cinayətdir, ondan əl çəksin. Fransa tam olaraq başa salabilərdi ki, Ermənistan rəhbərlərinin etdikləri beynəlxalq hüquq normalarına ziddir. Bu kimi işlərin axırı olmur.

Bundan başqa, Fransa Avropa İttifaqının üzvü kimi həm demokratiyanı müdafiə etməlidir, həm də Azərbaycanla imzalanan strateji tərəfdaşlıq sazişlərinin müddəalarına əməl etməlidir. Paris isə bunu bir neçə məqamda kobud şəkildə pozur. Birincisi, Fransa parlamentinin üzvləri Dağlıq Qarabağa səfərlər edirlər. Fransanın bəzi şəhərlərinin merləri eyni yanlış hərəkəti edirlər. Bununla Fransa rəsmi olaraq BMT, Aİ, AŞPA-da qəbul edilən və altında imzası olan sənədlərdəki tələbləri pozur. Son olaraq, Aİ ilə Azərbaycanın birgə hazırladığı və Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təsdiqləyən sənədin müddəalarına zidd hərəkət edir.

İkincisi, Fransa Prezidenti beynəlxalq tədbirdə çıxış edərək özünün ermənipərəst olduğunu açıq etiraf edib. Bu isə bir tərəfdən Azərbaycanla imzalanan sazişlərin ruhuna ziddir, digər tərəfdən Fransanın ATƏT-in Minsk qrupunun həmsədri kimi tərəfsiz ola bilməyəcəyi anlamına gəlir. Elə isə Fransa özü bəyanat verib Minsk qrupunun həmsədrliyindən çəkilməlidir. Lakin rəsmi Parisin bunların heç birini etmək fikrində olmadığı aydın görünür.

Bütün bunlarla yanaşı, bir geosiyasi məqam maraqlıdır. Ermənistan Frankofoniyanı İrəvanda keçirməklə Rusiyaya yeni "əlcək atmış" olur. Paris açıqca Ermənistanda hökmranlıq etmək niyyətini ortaya qoyur. E.Makron bunu ən azı iki istiqamətdə təsdiqlədi. Əvvəla, Fransa Prezidenti Ermənistanın ən yaxın tərəfdaşı olduğunu ifadə etdi. Bəs onda Rusiya kimdir? Axı, Ermənistan adlı dövləti Rusiya yaradıb. İndi onun ən yaxını Fransa oldu? Kremlin buna reaksiyası maraqlı olacaq.

İkincisi, E.Makron fransız dilinin Ermənistan üçün əhəmiyyətini dolayısı ilə ifadə etmiş oldu. Özü də bu, Ermənistanda rus dilinin demək olar ki, tamamilə yox edilməsi fonunda baş verir. Rusiya Ermənistanın təhsil sistemində rus dilinin inkar edilməsi ilə bağlı dəfələrlə fikrini bildirib. Ancaq real dəyişiklik yoxdur. Bunun əvəzində Ermənistan rəhbərliyi fransız dili və mədəniyyəti ilə bağlı tədbirə evsahibliyi edir. O, faktiki olaraq "rus dünyası"nı "fransız dünyası"na dəyişməyə istiqamət götürüb.

Azərbaycan isə tamamilə fərqli mövqedədir. Bakı Fransa ilə də yaxın əlaqələrini inkişaf etdirir, Rusiya ilə də bütün sahələrdə münasibətlərini çox müsbət müstəvidə inkişaf etdirməkdədir. Azərbaycanda rus dilinin inkişafı üçün heç bir maneə yoxdur. Hətta ölkənin təhsil sistemində bu dilin yeri və rolu getdikcə daha da möhkəmlənir. Rus mədəniyyəti Azərbaycanda yayılıb, yayılır və bu vəziyyətin dəyişəcəyinə dəlalət edən fakt yoxdur.

Ancaq əsas sual budur ki, Azərbaycan bu ölkələrlə səmimi və dostca münasibət qurarkən, ermənilərin isə eqoist, əsassız iddiaları ilə üz-üzə gələrkən Paris lazımi dərəcədə konstruktiv mövqe tutmur, təcavüzkara açıq və ya gizli dəstək göstərir, ona yeni-yeni silahlar verir. Görünür, Azərbaycan bu təcrübəni nəzərə alıb hansısa nəticələr çıxara bilər. Hər halda, xüsusilə Fransanın ədalətli və obyektiv mövqe tutmadığı aydındır.

Bütün bunlar beynəlxalq hüququn, demokratik dəyərlərin, insan hüquq və azadlıqlarının ayaqlar altına atılmasıdır və dövlətlərarası münasibətlərin dostluq ruhu ilə ziddiyyət təşkil edir. Azərbaycan özünün xarici siyasətini bərabərhüquqlu əməkdaşlıq, qarşılıqlı etimad, beynəlxalq hüquq normalarına hörmət, daxili işlərə qarışmamaq prinsipləri üzərində qurur. Və bütün ölkələrlə, o cümlədən Fransa ilə əməkdaşlıq və tərəfdaşlıq münasibətlərini məhz bu prinsiplər əsasında həyata keçirir.

Rəsmi Bakı kifayət qədər düşünülmüş və məntiqli siyasət yürüdür. Bu siyasət milli maraqlara uyğun olaraq beynəlxalq hüquq çərçivəsində reallaşdırılır. Ölkə rəhbərliyi daim ən düzgün mövqeni seçir. Bunu təcrübə dəfələrlə təsdiq edib. Azərbaycan heç də böyük dövlətlərlə münasibətləri pozmaq kimi kurs yeritmir, daim əməkdaşlıq və qarşılıqlı fayda üçün çalışır. Bununla yanaşı, əks tərəfin də hərdən vicdanını qarşısına qoyub düşünməsi lazım deyilmi?

Bir başqa məqam da Cənubi Qafqazın geosiyasi vəziyyəti ilə bağlıdır. Hamı etiraf edir ki, bu bölgədə kifayət qədər mürəkkəb geosiyasi dinamika mövcuddur. Ermənistanın qeyri-konstruktiv və təcavüzkar siyasət aparması, İranla Qərbin münasibətlərinin daha da gərginləşməsi və terror təhlükəsinin yaxınlaşması kimi amillər son dərəcə həssas durum meydana gətirib. Belə bir vəziyyətdə Cənubi Qafqaza xoş münasibəti olan hər bir dövlət yumşaldıcı, əməkdaşlığa təkan verən, ədalətli, obyektiv siyasət yeritməlidir. Bu məsələdə tərəfkeşlik olmamalıdır. Fransa kimi təcrübəli bir dövlətin atdığı addımlar isə tamamilə bunun tərsidir. Və bu keyfiyyətdə qətiyyən Cənubi Qafqazda sabitliyə, sülhə yardım etmir.

Səbəbi ondan ibarətdir ki, Fransa rəhbərliyi açıqca bəyan edir ki, təcavüzkarın yanındadır, onun ən yaxın dostudur. Bu şərtdə Ermənistan BMT TŞ-nin qətnamələrinə əməl edərmi? Aİ-nin qəbul etdiyi sənədlərin şərtlərini yerinə yetirərmi? Fransa özü imzaladığı sənədləri hüquqi aspektdə gözdən salır, onların adi kağız parçası olduğunu dolayısı ilə nümayiş etdirirsə, təcavüzkar, qeyri-konstruktiv düşüncəyə sahib, psixoloji olaraq xəstə olan Ermənistan rəhbərləri üçün onlar heç kağız parçası da deyil.

Məhz bu baxımdan, hesab edirik ki, Emmanuel Makronun fransızdilli ölkələrin beynəlxalq əməkdaşlıq təşkilatının 17-ci sammitindəki çıxışı siyasi karyerasının ən uğursuz məqamıdır. Orada yalnız Azərbaycana deyil, bütövlükdə dünya siyasətinə, Fransanın dövlət maraqlarına və Aİ-nin gələcəyinə zərər vura biləcək məqamlar vardır. Şübhə etmirik ki, əlahəzrət zaman, bunu təsdiq edəcək. O anda Fransa liderlərinin simasına baxmaq daha maraqlı olardı!

**Newtimes.az**

# Heydər Əliyev Fondu Sankt-Peterburqdakı Nizami Gəncəvi bağında bərpa işləri aparıb




**Heydər Əliyev Fondu Rusiyanın Sankt-Peterburq şəhərində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyan bağın ərazisində yerli şəhər administrasiyası ilə birgə yenidənqurma və abadlaşma işləri aparıb.**

Bu barədə AZƏRTAC-a Fonddan məlumat verilib.

Qeyd edək ki, şəhərin sərt iqlim şəraiti dahi şairin əsərlərindən fraqmentlərin təsvir olunduğu pannolara və onun abidəsinə öz təsirini göstərib. Bərpa işləri zamanı pannoların üzərində zəruri işlər aparılıb, qızıl suyu ilə yazılar və abidə bərpa olunub, ətraf ərazi abadlaşdırılıb.

Dünyanın mədəniyyət mərkəzlərindən sayılan Sankt-Peterburqda Nizami Gəncəvinin abidəsi 2002-ci ildə açılıb. Nizaminin obrazını Azərbaycan heykəltəraşı Qəyruş Babayev yaradıb. 2011-ci ildə isə şairin anadan olmasının 870 illiyi ilə əlaqədar Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin himayədarlığı ilə bağda Nizami Gəncəvinin əsərlərindən fraqmentlərin təsvir olunduğu pannolar qurulub. Sankt-Peterburq qubernatorunun qərarı ilə bağa Nizami Gəncəvinin adı verilib.

**AZƏRTAC**



# Yeniyetmələrə mütaliəni sevdirən silsilə görüşlər

**Mütaliə uşaqların dünyagörüşünün formalaşmasında ən vacib amillərdən biridir. O, uşaqların elmə, ədəbiyyata marağını artırır, onları zərərli vərdişlərdən uzaqlaşdırır. Müasir dövrdə yazıçılarla, tanınmış elm xadimləri ilə yeniyetmələrin görüşlərinin təşkil olunması mütaliəyə marağın artırılması üçün görülən zəruri tədbirlərdən biridir. Bu məqsədlə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Yasamal rayon MKS-nin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasında və kitabxana filiallarında silsilə görüşlər keçirildi.**

M.Ş.Vazeh adına Yasamal rayon Mərkəzi Kitabxanada təşkil olunan görüşdə tanınmış uşaq yazarı, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, H.Zərdabi mükafatçısı, "Sehrli dünya" uşaq jurnalının baş redaktoru Gülzar İbrahimova, tanınmış astroloq, filologiya elmləri doktoru Firudin Qurbansoy, gənc tədqiqatçı və naşir, təbrizli soydaşımız, AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin doktorantı Hədyə Zəhra Əhmədi iştirak etdilər.

Uşaq yazıçısı, şairə Gülzar İbrahimova (Gülzar nənə) uşaqlarla görüşündə onlara vətənpərvərlik haqqında şeir və hekayələrini təqdim etdi. Uşaqların arzularını dinlədi, həyat yollarında qarşılarına çıxan bütün çətinliklərə hazır olmaq üçün mütaliənin vacibliyini bildirdi.

Təbrizdə yaşayan həmyerlimiz Hədyə Zəhra Əhmədi tədbir iştirakçılarına İranda da mütaliəyə böyük önəm verilməsindən danışdı. O, təbrizli balaların ən çox sevdikləri əsərlərdən söhbət açdı. Hədyə xanım onu da qeyd etdi ki, Təbrizdə Azərbaycan dilində fars əlifbası ilə nəşr edilmiş Gülzar İbrahimovanın "Yalançı pəhləvan" əsəri geniş yayılıb və sevilib.



Belə maraqlı görüşlər Yasamal rayon MKS-nin kitabxana filiallarında da davam etdirildi.

MKS-nin Ə.Vahid adına 1 nömrəli kitabxana filialında "Gülzar nənənin nağıl dünyası" tədbirində uşaqlar Gülzar İbrahimovanın "Hansı peşəni seçim" kitablarından şeirlər söylədilər.

Tədbirdə Yasamal rayonu 18 nömrəli məktəbin 7-ci sinif şagirdi Nəzrin Məmmədova çıxış edərək gözəl nağıllar yazdığına və rəngarəng "Sehrli dünya" jurnalını nəşr etdiyinə görə Gülzar nənəyə öz minnətdarlığını bildirdi.

A.Şaiq adına 2 nömrəli kitabxana filialında "Uşaqlar mütaliə edir" tədbirində uşaq yazıçısı Gülzar İbrahimova tədbirdə iştirak edənlərə "Sirus və Virusun macəraları" kitabının yaranma tarixindən söhbət açdı, "Dostlaşmış nağıllar" kitabı haqqında danışdı, uşaqları maraqlandıran sualları həvəslə cavablandırdı.

Q.Musabəyov adına 3 nömrəli kitabxana filialında "Gülzar İbrahimova ilə görüş" tədbirini Yasamal rayon MKS-nin direktoru, tarix elmləri üzrə fəlsəfə doktoru Lətifə Məmmədova açaraq, iştirak edən uşaqlara işıqlı gələcəyə aparan yolun mütaliədən keçdiyini söyləyib, dəyərli məsləhətlər verdi.

X.B.Natəvan adına 4 nömrəli kitabxana filialında "Gülzar nənəmiz qonağımızdır" adlı tədbir uşaqlar tərəfindən çox böyük maraqla qarşılandı. Görüşdə Səbinə Abbasova, şair, bəstəkar Elxan Rəsuloğlu iştirak etdilər. Kitabxana filialının müdiri Turanə Əmirova gələn qonaqları salamlayaraq, tədbir iştirakçılarının adından Gülzar İbrahimovaya gözəl əsərlərinə görə təşəkkürünü bildirdi.

Gülzar İbrahimova maraqlı görüş üçün oxuculara minnətdarlığını bildirdi və onlara yaradıcılığındakı yeniliklərdən danışaraq, "Dostlaşmış nağıllar" kitabı haqqında məlumat verdi.

**Əli SADIQOV,**
**"Respublika".**

# ADAU-da ağacəkmə kampaniyası keçirilib

**Azərbaycan Dövlət Aqrar Universitetinin tədris korpuslarının və tələbə evlərinin həyətində dövlət başçısı cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətinin 15 illiyi münasibəti ilə ağacəkmə aksiyası keçirilmişdir.**

Ağacəkmə aksiyasında ilk öncə universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov ölkə Prezidenti cənab İlham Əliyevin apardığı məqsədyönlü və uğurlu siyasət nəticəsində Azərbaycanın son 15 il ərzində keçdiyi çox böyük və şərəfli inkişaf yolundan ətraflı danışdı. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və ölkə Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi daxili və xarici siyasət Azərbaycanın dünya birliyindəki mövqeyini gündən-günə möhkəmləndirir. Milli maraqlara söykənən xarici siyasət ölkəmizin regionda və onun hüdudlarından kənarda mehriban qonşuluq, qarşılıqlı faydalı əməkdaşlıq və tərəfdaşlıq mühiti formalaşdırılmasında mühüm rol oynayaraq bölgədə lider dövlətə çevrilib.



Sonra böyük coşqu ilə ağacəkmə aksiyası başlandı. Müəllim və tələbələrin yüksək fəallıqla qoşulduğu tədbirdə ərazidə təmizlik-abadlıq işləri aparılıb, ot-alaqdan təmizlənib. Əsasən Gəncənin landşaftına uyğun, şəhərə yaraşıq verən, havanın oksigen ilə zənginləşməsində xüsusi rolu olan 50 ədəd çinar ağacı və 500 ədəd qızılgül kolları əkildi. Eyni zamanda, mövcud olan yaşıllığa aqrotexniki qulluq edildi.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# DÖVLƏT SƏRHƏD XİDMƏTİ MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən etibarlı sərhəd mühafizəsinin təmin edilməsi, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin ölkə ərazisinə qanunsuz gətirilməsinin qarşısının alınması istiqamətində tədbirlər davam etdirlir.

Hadisə 11 oktyabr 2018-ci il tarixində DSX Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində baş vermişdir. Həmin tarixdə saat 23:50 radələrində Beyləqan rayon 2-ci Şahsevən kəndi ərazisindəki sərhəd zastavasının xidməti sahəsində dövlət sərhədini pozaraq İrandan Azərbaycana keçmək istəyən 1 nəfərin naməlum şəxsin hərəkəti sərhəd naryadı tərəfindən aşkar edilmişdir.

Sərhədçilərin "dayan" əmrinə tabe olmayan sərhəd pozucusu əlindəki əşyanı ataraq geriyə İİR tərəfə qaçmışdır. Həmin əraziyə baxış zamanı 1 ədəd sarı rəngli kisənin içərisində 10 kq 530 qram narkotik vasitə və 5010 ədəd psixotrop tərkibli dərmanlar aşkar edilmişdir.

Hadisə ilə əlaqədar zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

* * *

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən etibarlı sərhəd mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir.

2018-ci il oktyabrın 10-da daxil olan əməliyyat məlumatına əsasən, DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində külli miqdarda narkotik vasitənin qanunsuz dövriyyədən çıxarılmasına nail olunmuşdur.

Həmin tarixdə saat 02:40 radələrində keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində Yardımlı rayon Arvana kəndi ərazisindəki sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozan 2 nəfər naməlum şəxsin hərəkəti sərhəd naryadı tərəfindən müşahidə olunmuşdur.

Hərbi qulluqçular tərəfindən sərhəd pozucuları saxlanılaraq sərhəd zastavasına gətirilmiş, onların üzərinə baxış keçirilərkən 1 ədəd qara rəngli əl çantasının içərisində 6 ədəd polietilen bağlamada 5 kq tiryək aşkar edilmişdir.

Saxlanılmış sərhəd pozucularının şəxsiyyəti müəyyənləşdirilmiş, onların İran İslam Respublikası vətəndaşları - 1990-cı il təvəllüdlü Pənahi İbrahim Əli və 1993-cü il təvəllüdlü Nəravi Mehdi Əhməd olmaları məlum olmuşdur.

Fakt üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

"Bakı Metropoliteni" QSC istismar və tikinti sahələrinin normal işinin təşkili üçün zəruri olan malların, işlərin və xidmətin satın alınması üzrə
AÇIQ TENDER ELAN EDİR
Tender 4 (dörd) lot üzrə keçirilir:
Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.
Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.
Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən (Əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.
LOT-1. "Bakı Metropoliteni" QSC-nin müəyyən ərazilərində səki və yollara asfalt örtüyünün qoyulması işlərinin satınalınması
LOT-2. "Bakı Metropoliteni" QSC-nin inzibati binalarında 2019-cu il üçün təmizlik işlərinə dair xidmətin göstərilməsinin satın alınması
LOT-3. Təsərrüfat mallarının satın alınması
LOT-4. "Bakı Metropoliteni" QSC-də 1C proqramının təkmilləşdirilməsi üçün modulların alınması və tətbiq edilməsi işlərinin satın alınması
İştirak haqqı - LOT-1 - 300 manat
LOT-2 - 300 manat
LOT-3 - 300 manat
LOT-4 - 150 manat
Hesab: AZ98AZRT38050019440010268002
VÖEN: 1402871431
Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)
Kodu: 501361
VÖEN: 9900006111
M/H:AZ02NABZ01350100000000022944
S.W.İ.F.T: AZRTAZ22
İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
-tenderdə iştirak etmək üçün yazılı müraciət;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);
-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).
Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.
İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 21 noyabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 29 noyabr 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi 20, ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.
Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.
İddiaçıların təklifləri 30 noyabr 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.
İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.
"BAKI METROPOLİTENİ" QSC
TENDER KOMİSSİYASI.

**16.10.2018-ci il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 16 oktyabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **132512,0** | **136413,2** | **97,1%** | **126034,78** | **94081,89** | **134,0%** |
| Ağcabədi rayonu | 10000,0 | 9550,0 | 104,7% | 13493,76 | 8252,48 | 1,6 dəfə |
| Ağdam rayonu | 3100,0 | 3005,0 | 103,2% | 3419,01 | 2560,37 | 133,5% |
| Ağdaş rayonu | 3185,0 | 3000,0 | 106,2% | 2350,21 | 1628,65 | 144,3% |
| Ağsu rayonu | 2600,0 | 2500,8 | 104,0% | 1011,59 | 1239,50 | 81,6% |
| Beyləqan rayonu | 9560,0 | 8550,0 | 111,8% | 10928,37 | 7505,63 | 145,6% |
| Bərdə rayonu | 9630,0 | 8518,5 | 113,0% | 13112,30 | 7650,11 | 1,7 dəfə |
| Biləsuvar rayonu | 12000,0 | 11351,8 | 105,7% | 10166,62 | 10925,43 | 93,1% |
| Cəlilabad rayonu | 505,0 | 500,0 | 101,0% | 545,67 | 458,40 | 119,0% |
| Füzuli rayonu | 2100,0 | 2050,0 | 102,4% | 1346,13 | 898,90 | 149,8% |
| Goranboy rayonu | 5000,0 | 5000,0 | 100,0% | 5018,18 | 2161,20 | 2,3 dəfə |
| Hacıqabul rayonu | 1300,0 | 1203,9 | 108,0% | 611,70 | 316,56 | 1,9 dəfə |
| İmişli rayonu | 13645,0 | 15641,5 | 87,2% | 8751,70 | 6245,12 | 140,1% |
| Kürdəmir rayonu | 5030,0 | 4027,0 | 124,9% | 3855,66 | 2387,71 | 1,6 dəfə |
| Neftçala rayonu | 7000,0 | 11111,0 | 63,0% | 6247,01 | 4601,10 | 135,8% |
| Saatlı rayonu | 15815,0 | 17220,0 | 91,8% | 17221,48 | 15426,70 | 111,6% |
| Sabirabad rayonu | 13055,0 | 15055,0 | 86,7% | 10133,27 | 9308,80 | 108,9% |
| Salyan rayonu | 7055,0 | 7052,4 | 100,0% | 6023,87 | 4330,20 | 139,1% |
| Samux rayonu | 400,0 | 53,0 | 7,5 dəfə | 334,28 | 8,92 | 37,5 dəfə |
| Tərtər rayonu | 3300,0 | 3123,0 | 105,7% | 4287,87 | 3624,92 | 118,3% |
| Ucar rayonu | 2500,0 | 2500,0 | 100,0% | 963,84 | 999,66 | 96,4% |
| Yevlax şəhəri | 2500,0 | 2168,0 | 115,3% | 3432,98 | 1162,53 | 3 dəfə |
| Zərdab rayonu | 3232,0 | 3232,3 | 100,0% | 2779,28 | 2389,00 | 116,3% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**




## ❑ TRAMP TÜRKİYƏ İLƏ BÜTÜN ƏLAQƏLƏRİ KƏSMƏK İSTƏYİRMİŞ



ABŞ prezidenti Donald Tramp, rahib Endryu Branson azad edilməyənədək Türkiyədəki bütün diplomatları geri çağırmaq, bu ölkədəki səfirlik və diplomatik nümayəndəliklərini bağlamaq istəyib. "Sputnik" informasiya agentliyinin verdiyi xəbərə görə, bu barədə "ABC News" telekanalı Ağ Ev və Dövlət Departamentində olan mənbələrə istinadən məlumat yayıb.

Telekanal qeyd edib ki, Tramp Bransonla bağlı vəziyyətə görə bərk hirslənib. Belə ki, Donald Tramp, hətta ABŞ səfirlik və diplomatik nümayəndəliklərinin bağlanması barədə plan hazırlamağı tapşırıb.

Eyni zamanda, bildirilir ki, Trampın ətrafı bu təşəbbüsü müxtəlif formada qarşılayıb. Belə ki, administrasiya rəhbəri Con Kelli Türkiyədən yalnız yüksək ranqlı diplomatik personalın geri çağrılmasını istəyib. Lakin Trampın təhlükəsizlik üzrə müşaviri Con Bolton prezidenti tamamilə dəstəkləyib.

Bununla yanaşı, dövlət katibi Mayk Pompeo isə bu ideyaya qarşı çıxıb. O, Donald Trampı inandıra bilib ki, bu addım hər iki ölkənin münasibətlərinə bərpa olunmayacaq səviyyədə zərbə vuracaq.

Sonradan Dövlət Departamenti yayılan məlumatı təkzib edib. Ağ Ev isə məlumatı şərh etməkdən imtina edib.

Xatırladaq ki, oktyabrın 12-də Türkiyə məhkəməsi Birləşmiş Ştatlardan olan rahib Endryu Bransona 3 il, 1 ay 15 gün həbs cəzası verib. Branson həbsdə qaldığı müddət nəzərə alınaraq, təxliyə olunub. Məhkəmə onun Türkiyəni tərk etməsinə qoyulan qadağanı da ləğv edib və keşiş ölkəsinə geri dönüb.

## ❑ AVROPA İTTİFAQI SƏRT QƏRAR QƏBUL EDİB



Avropa İttifaqına (Aİ) üzv ölkələrin xarici işlər nazirləri kimyəvi silahların yayılması və tətbiqinə görə sanksiyalara dair yeni mexanizm qəbul ediblər. "Sputnik" informasiya agentliyinin məlumatına görə, bu barədə Avropa İttifaqı Şurasının mətbuat xidməti bəyanat yayıb.

"Artıq Avropa İttifaqının istehsal yeri, bunun harada baş verməsi və onların milli mənsubiyyətindən asılı olmayaraq kimyəvi silahların hazırlanması və istifadəsi ilə əlaqəli olan şəxslərə və təşkilatlara qarşı sanksiya tətbiq etmək imkanı olacaq", - deyə bəyanatda bildirilir.

Yeni qaydalara əsasən, adı siyahıya düşən şəxslərin Aİ ölkələrinə girişi məhdudlaşdırılacaq və həmin şəxslərin bank hesabları dondurulacaq. Bundan əlavə Avropa İttifaqı ölkələri və vətəndaşlarına sanksiya siyahısına daxil olan şəxslərə maliyyə vəsaitlərinin köçürülməsi də qadağan ediləcək.

Məlumata görə, sözügedən qərar Britaniyanın Solsberi şəhərində baş verən insidentdən sonra gündəmə çıxarılmışdı. O vaxtdan etibarən Rusiyaya qarşı yeni sanksiyaların tətbiq olunacağı nəzərdə tutulurdu.

Xatırladaq ki, cari il mart ayının 4-də Böyük Britaniyanın Solsberi şəhərindəki kafelərdən birində Rusiya Baş Kəşfiyyat İdarəsinin keçmiş polkovniki Sergey Skripal və onun qızı Yuliya huşsuz vəziyyətdə tapılıb. Daha sonra Skripalların naməlum maddə ilə zəhərləndikləri məlum olub. Britaniya hökumətinin rəyinə görə, onları Rusiya istehsalı olan "Noviçok" adlı kimyəvi maddə ilə zəhərləyiblər.

## ❑ ABŞ VƏ BÖYÜK BRİTANİYA SƏUDİYYƏ KONFRANSINI BOYKOT EDƏ BİLƏR



Səudiyyəli jurnalist Camal Kaşıkçının yoxa çıxmasından sonra ABŞ və Böyük Britaniya Səudiyyə Ərəbistanında keçirilməsi nəzərdə tutulan beynəlxalq konfransda iştirakdan imtina edə bilər. Bu barədə "BBC" agentliyi xəbər verib.

Camal Kaşıkçı məsələsinə görə bir neçə sponsor və media qrupu da Ər-Riyadda bu ay keçirilməsi nəzərdə tutulan beynəlxalq konfransda iştirak etməmək qərarəına gəlib.

Bu konfrans "Səhrada Davos Forumu" adı ilə də təbliğ olunur. Sözügedən tədbiri Səudiyyə Ərəbistanı vəliəhdi Məhəmməd bin Salman keçirdiyi islahatları təbliğ etmək üçün təşkil edir.

Səudiyyə Ərəbistanı hökumətinin tənqidçisi kimi tanınan jurnalist və yazar Camal Kaşıkçı oktyabrın 2-də İstanbulda Səudiyyə Ərəbistanı konsulluğuna baş çəkəndən sonra yoxa çıxıb.

İstanbuldakı rəsmilər hesab edirlər ki, o, səudiyyəli agentlər tərəfindən öldürülüb. Rəsmi Ər-Riyad isə bu iddiaları qəti şəkildə rədd edir.

ABŞ prezidenti Donald Tramp bildirib ki, əgər jurnalistin yoxa çıxmasında Səudiyyə Ərəbistanının əli olduğu təsdiqlənərsə, o, bu ölkəni cəzalandıracaq.

Eyni zamanda, Camal Kaşıkçının səudiyyəli agentlər tərəfindən öldürüldüyü təsdiqlənərsə, ABŞ və Avropa diplomatları buna birgə bəyanatla reaksiya vermək planını nəzərdən keçirirlər.

Səudiyyənin adı açıqlanmayan rəsmisinin sözlərinə istinadən "SPA" dövlət agentliyi qeyd edib ki, rəsmi Ər-Riyad yoxa çıxmış jurnalist Camal Kaşıkçı ilə bağlı siyasi və iqtisadi "hədələri" rədd edir. "Krallıq təsdiqləyir ki, hər bir addıma daha təsirli qarşılıqla cavab verəcək. Səudiyyə Ərəbistanı iqtisadiyyatı qlobal iqtisadiyyat üçün həyati əhəmiyyət kəsb edir", - deyə mənbə bildirib.

## ❑ İRAQ VƏ TÜRKİYƏ TƏHLÜKƏSİZLİK PROTOKOLUNU TƏSDİQLƏDİ



İraqda yeni hökumət qurulana qədər vəzifəsinin icrasını davam etirən baş nazir Heydər əl-Abadinin mətbuat xidmətindən verilən məlumata görə, ölkənin Nazirlər Kabinetində İraq və Türkiyə Daxili İşlər Nazirlikləri arasında təhlükəsizlik sahəsinə dair əməkdaşlıq protokolu təsdiq edilib. Bu barədə "TRT" telekanalı xəbər verib.

Məlumata görə, sözügedən əməkdaşlıq protokolunun təfərrüatları açıqlanmır. Digər tərəfdən, İraqın Daxili İşlər Nazirliyi protokolun sərhəd təhlükəsizliyinə dair iki ölkə arasındakı təhlükəsizlik koordinasiyasını hədəflədiyini bildirib.

Eyni zamanda, nazirlik hazırda sərhəd təhlükəsizliyinin İraqın Daxili İşlər Nazirliyinə tabe olan Sərhəd Mühafizə Qüvvələri tərəfindən qorunduğunu bəyan edib.

Bununla yanaşı, Daxili İşlər Nazirliyinin açıqlamasında İraq ərazisindən Türkiyəyə qarşı hər hansı bir hücumun baş verməməsi üçün yüksək səviyyəli koordinasiyalı işin aparıldığı və iki ölkənin suverenliyinə hörmət edildiyi ifadə olunub.

Məlumat üçün qeyd edək ki, Heydər əl-Abadi ötən ay Türkiyə ilə sərhəd bölgəsinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə bu bölgəyə silahlı qüvvələrin yerləşdirilməsi barədə göstəriş vermişdi. ■

## Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi

# AÇIQ TENDER ELAN EDİR

**Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi (Komitə) "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən 3 lot üzrə açıq tender keçirir:**

**Lot 1** - Komitənin Aparatı üçün 2018-ci il ərzində tələb olunan digər maşın və avadanlıqlar;

**Lot 2** - Komitənin Aparatı üçün 2018-ci il ərzində tələb olunan inventarlar;

**Lot 3** - Proqram təminatının və proqram təminatının modullarına texniki dəstəyin satın alınması.

Görüləcək işlərin tərkibi və həcmi haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir.

Tenderdə iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş açıq tenderin əsas şərtlər toplularını Komitənin aşağıda qeyd olunmuş hesabına hər bir lot üzrə 200 (iki yüz) Azərbaycan manatı məbləğində iştirak haqqını ödədikdən sonra Komitəyə rəsmi müraciət edərək Bakı şəhəri, Füzuli küçəsi, 65 ünvanından əldə edə bilərlər:

*VÖEN: 1400032621;*
*Hesab: 2278501;*
*Bankın rekvizitləri:*
*Adı: Dövlət Xəzinədarlıq Agentliyi;*
*Kodu: 210005;*
*VÖEN: 1401555071*
*Müxbir hesabı: AZ41NABZ01360100000000003944,*
*SWİFT.BİK.CTREAZ22.*

**Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tender iştirakçılarının müqaviləni yerinə yetirmək üçün lazımi maliyyə və texniki imkanlara malik olması tələb olunur.

Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər 20 noyabr 2018-ci il tarixində yerli vaxtla saat 16:00-dək Komitəyə aşağıda qeyd edilmiş sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün ərizə;*

*-iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi (əsli);*

*-iştirakçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*

*-iştirakçının son bir ildəki maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*

*-iştirakçının son bir ildəki fəaliyyəti barədə vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iştirakçının vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmamasına dair müvafiq rayon vergilər idarəsi və Dövlət Sosial Müdafiə Fondu tərəfindən verilmiş arayışlar;*

*-tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*

*-iştirakçının müflis elan olunmaması, əmlakı üzərində həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış.*

İddiaçılar Azərbaycan dilində, iki nüsxədə (əsli və surəti olmaqla) tərtib edilmiş tender təklifini və tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatını bağlanmış, imzalanmış və möhürlənmiş ikiqat zərfdə 29 noyabr 2018-ci il yerli vaxtla saat 16:00 qədər Komitəyə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

İddiaçı öz tender təklifində satınalma müqaviləsi ilə əlaqədar tətbiq olunacaq bütün növ vergiləri (ƏDV daxil olmaqla) nəzərə almalıdır.

İddiaçının tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır, tender təklifi ilə birlikdə təqdim olunan tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatının qüvvədə olma müddəti isə tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır.

İddiaçıların təklifinin qiymətləndirilməsi zamanı satınalan təşkilat xarici iddiaçıların tender təklifləri (idxal olunan mallar, işlər və xidmətlər üzrə) ilə müqayisədə yerli iddiaçıların tender təkliflərinin (mallar, işlər və xidmətlər üzrə) xeyrinə 20 faizə qədər həcmində güzəştli düzəliş tətbiq edəcəkdir.

İddiaçıların tender təklifləri olan zərflərin açılışı 30 noyabr 2018-ci il tarixində yerli vaxtla saat 16:00-da Bakı şəhəri, Füzuli küçəsi, 65, III mərtəbədə yerləşən Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin iclas zalında keçiriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri tender təklifi zərflərinin açılış prosedurunda iştirak etməyə dəvət olunurlar.

**Əlaqələndirici şəxs: Təyyar Əliyev (telefon: +994 12 493-34-67 (əlavə 113).**

**Tender Komissiyası.**

## TENDERDƏ İŞTİRAKA DƏVƏT (TİD)

Tarix 15.10.2018

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi, bundan sonra "Satınalan təşkilat" adlanacaq, potensial iddiaçıları aşağıdakı işlərin görülməsi üçün öz təkliflərini təqdim etməyə dəvət edir.

**Lot 1:** "Yanar dağ" dövlət tarix-mədəniyyət və təbiət qoruğunun layihələndirilməsi və inşaat işlərinin satın alınmasına dair

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri Üzeyir Hacıbəyli küçəsi 84, 2-ci mərtəbə, Dövlət Turizm Agentliyi, ümumi şöbə (Əlaqələndirici şəxs: Vüqar Hüseynov, telefon: 070 303 00 01) ünvanından ala bilərlər.

**İştirak haqqı: 1200 manat**
**Dövlət Turizm Agentliyi**
*Hesab: AZ33PAHA38060AZNHC0100090832*
*VÖEN: 1404365471*
*Bank: PAŞA Bank ASC*
*Kodu: 505141*
*VÖEN: 1700767721*
*M/H: AZ82NABZ01350100000000071944*
*S.W.İ.F.T: PAHAAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;*

*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*9. Digər sənədlər: Əsas şərtlər toplusunda nəzərdə tutulmuş.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **15.11.2018-ci il saat 15:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 28.11.2018-ci il saat 15:00-a qədər** Bakı şəhəri Üzeyir Hacıbəyli küçəsi 84, 2-ci mərtəbə, (Dövlət Turizm Agentliyi, ümumi şöbə) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri **29.11.2018-ci il saat 15:00 tarixində** Bakı şəhəri Üzeyir Hacıbəyli küçəsi 84, 2-ci mərtəbə, Dövlət Turizm Agentliyi, ümumi şöbə açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## Gədəbəy Rayon İcra Hakimiyyəti Başçısının Samanlıq kənd İnzibati Ərazi Vahidi üzrə Nümayəndəliyi 2018-ci il üçün

# KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Cari təmir

**2.** Əsaslı təmir

**Əlaqələndirici şəxs:** *Məmmədov Naib Hüseyin oğlu*

**Ünvan:** *Gədəbəy rayonu, Samanlıq kəndi*

**Telefon:** *050 523 77 33.*

**Tender Komissiyası.**

## İsmayıllı Rayon İcra Hakimiyyəti

# KOTİROVKA SORĞUSU ELAN EDİR

İsmayıllı rayonu, İvanovka kəndində Mədəniyyət Sarayı binasının əsaslı təmiri üçün layihə-smeta sənədlərinin hazırlanması.

Maraqlananlar 23 oktyabr 2018-ci il tarixə qədər İsmayıllı Rayon İcra Hakimiyyətinin kotirovka komissiyasına müraciət edə bilər.

**Əlaqələndirici şəxs:** *Salihov Vüsal Bəxtiyar oğlu*

**Tel.:** *(020) 285-35-25*

## "Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu" ASC

# AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 3 (üç) lot üzrə keçirilir:**

**Lot-1.** Digər maşın və avadanlıqların satın alınması

**Lot-2.** Müxtəlif ölçülü şinlərin satın alınması

**Lot-3.** Suvarma nasoslarının ehtiyat hissələrinin və elektrik mallarının satın alınması

Hər üç lot üzrə mallar barədə ətraflı məlumat (miqdarı, həcmi, xüsusiyyətləri, təqdim olunması vaxtı və yeri və s.) tenderin əsas şərtlər toplusunda göstərilmişdir.

İddiaçılara təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlı zərfdə yazılı surətdə təqdim etsinlər.

İddiaçılar öz tender təkliflərini bütün zəruri vergi və rüsumları nəzərə almaqla hesablamalıdırlar. Tender təklifləri bal sistemi üsulu ilə qiymətləndiriləcəkdir. Təkliflərin qiymətləndrilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, qrafikə uyğun malların təhvil verilməsi.

**Əlavə məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edilə bilər. Əlaqələndirici şəxs: Məmmədov Samir Saiq oğlu Tel.: (012) 424 32 84, mob./tel.: (055) 455 41 38, ünvan: Bakı şəhəri, Nobel pr., 61.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır.

Tenderin əsas şərtlər toplusunu almaq istəyənlər birinci lot üzrə 100 manat, ikinci lot üzrə 50 manat, üçüncü lot üzrə 75 manat iştirak haqqı köçürdükdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

*Alan bank: Dövlət Xəzinədarlığı Agentliyi, VÖEN: 1401555071, kod 210005,*

*M/h: AZ41NABZ01360100000000003944*

*SWİFT: CTREAZ22*

*Alan təşkilat: "Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu" ASC, VÖEN: 1100496071*

*büdcə təsnifatının kodu 142340, büdcə səviyyəsinin kodu: 7, fond 7,*

*hesab № AZ62CTRE00000000000002197801*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün 21 noyabr 2018-ci il saat 17:00 tarixə qədər aşağıdakı sənədləri (tender təklifi və təklifin 2% bank zəmanəti istisna olmaqla) təqdim etməlidirlər.

*-Tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-İştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-Analoji işlərdə təcrübəsi, iddiaçının potensial, texniki və kadr imkanları haqqında rəsmi məlumat;*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

İddiaçılar tender təklifi (təklif zərfləri açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır) və ümumi təklifin 2%-i həcmində tender təklifinin təminatını - bank zəmanətini (tender təklifinin qüvvədə olma müddətindən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır) 28 noyabr 2018-ci il saat 17:00-a qədər iki nüsxədən ibarət (əsli və surəti) ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə Bakı şəhəri, Nobel pr., 61 ünvanında yerləşən tender komissiyasına təqdim etməlidirlər.

İddiaçıların tender təklifləri Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklif zərfləri Bakı şəhəri, Nobel pr., 61 ünvanında yerləşən "Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu" ASC-nin inzibati binasında 29 noyabr 2018-ci il tarixdə:

Lot-1 üzrə saat 12:00-da, lot-2 üzrə saat 14:00-da, lot-3 üzrə 15:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndəsi etibarnamə əsasında tenderdə iştirak edə bilər.

**Tender Komissiyası.**

## "Azərbaycan Sənaye Korporasiyası" ASC tərəfindən PE100 yüksək sıxlıqlı 300 (üç yüz) ton polietilen dənəciklərinin alınması ilə əlaqədar satınalmalar məqsədilə

# AÇIQ TENDER ELAN EDİR

Tenderdə iştirak haqqı 300 (üç yüz) manat təşkil edir. İştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderin Əsas Şərtlər Toplusunu almaq və tenderdə iştirakçı statusunu əldə etmək üçün Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 40C (əlaqələndiri şəxs: Nihad Axundov, tel.: (+99412) 505-95-11 əldə edə bilərlər.

*Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı"nın Mərkəz filialı*
*Swift Code: İBAZAZ2X*
*Bankın ünvanı: Bakı, Z.Tağıyev küçəsi, 3.*
*Müxbir hesabı:*
*AZ03NABZ01350100000000002944*
*Kod: 805722*
*Bank VÖEN: 9900001881*
*Alan: Azərbaycan Sənaye Korporasiyası ASC*
*Alanın hesabı:*
*AZ31İBAZ38060019446065857204*
*VÖEN: 1305305281*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün ərizə;*

*- iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*- tender təklifi (zərflər açıldığı tarixdən əz azı 30 bank günü qüvvədə olmalıdır);*

*- iddiaçının tam adı, ünvanı, hüquqi statusunu təsdiq edən sənəd (surəti) və bank rekvizitləri;*

*- tender təklifinin təminatını təsdiq edən sənəd (bankın təminatı zərflər açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməmiş, vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*

Tender təklifinin bank təminatı tender təklifinin 1 (bir) %-dən az olmamalıdır.

İddiaçının tender təklifindəki qiymət malların qiymət dəyərindən başqa, nəqliyyat, ƏDV, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla göstərilməlidir.

Tender iştirakçıları öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri 17 noyabr 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş və hər iki tərəfi imzalanmış ikiqat zərflərdə 27 noyabr 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 40C ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtlardan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 30 noyabr 2018-ci il saat 11:00-da Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 40C ünvanda açılacaqdır.

Tenderin keçirilməsi ilə bağlı əlavə məlumat əldə etmək üçün "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin əməkdaşı Nihad Axundov (tel: +99412 505-95-11) əlaqə saxlamaq mümkündür.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

